

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 49 (840) ▪ 14 dekabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 13 il keçir. Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.



Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 13-cü ildönümü günü - dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirdilər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasətçi və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər öz müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər. Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub. Azərbaycanın dövlət himni səsləndi. Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

# İsrailin Baş naziri Benyamin Netanyahu ölkəmizə işgüzar səfərə gəlib

Səfər çərçivəsində Azərbaycan dövlətinin başçısının Benyamin Netanyahu ilə təkbətək görüşü olub, ölkələrimiz arasında əlaqələrin inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. B.Netanyahu Azərbaycan ilə İsrail arasında, Azərbaycan xalqı ilə yəhudi xalqı arasında möhkəm münasibətlərin, yaxın dostluğun olduğunu vurğulayıb: «Siz tolerantlıq, inklüzivlik ənənəsini qoruyub saxlamısınız. Yəhudilər özlərini burada çox rahat hiss edirlər. Sizinlə bizim aramızda ortaq dəyərlər var. Azərbaycanda yaşayan minlərlə yəhudi xalqlarımız arasında körpü rolunu oynayır».

Azərbaycan Prezidenti yəhudi icmasını cəmiyyətimizin çox fəal hissəsi olduğunu və ölkənin inkişafına çox böyük töhfələr verdiyini diqqətə çatdırıb. Qeyd edib ki, bu, ikitərəfli münasibətlərimizdə çox mühüm amildir.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan-İsrail sənədlərinin imzalanması mərasimi olub.

Mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu bəyanatlarla çıxış ediblər.

Azərbaycan Prezidenti deyib: «Bu gün imzalanmış sənədlər əməkdaşlığımız üçün çox böyük potensialın olduğunu açıq-aydın göstərir. Sənədlərin hamısı çox vacibdir. Mən onların arasında ikitərəfli əməkdaşlığın çox səmərəli mexanizmi olan birgə iqtisadi komissiyanı yaratmağa imkan verəcək sənədin əhəmiyyətini vurğulamaq istərdim. Əminəm ki, bu, ticarət dövriyyəsini artırmağa və onu şaxələndirməyə kömək edəcək. Ticarət dövriyyəsi yaxşı səviyyədə olsa da, bu, əsasən Azərbaycandan İsrailə neft ixracına görədir. Biz bunu şaxələndirmək və artırmaq üçün işləməliyik».



Prezident İlham Əliyev tərəflər arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıqda çox yaxşı perspektivlərin olduğunu, müasir texnologiyalar, turizm sahələrində əlaqələrin artırılması üçün birgə addımlar atılacağını vurğulayıb. Dövlətimizin başçısı qeyd edib ki, müdafiə sənayesi sahəsində fəal əməkdaşlıq var və bu əməkdaşlıq artıq bir neçə ildir davam edir.

Benyamin Netanyahu energetika sahəsində mövcud olan əlaqələri vurğulayıb: «Bu gün sadəcə ölkəmizin neft idxalının ciddi bir hissəsi olan, Azərbaycanın İsraili təchiz etdiyi neftin satışı barədə yox, həm də təbii qazın ixracı üçün birgə müəssisələrimizdən istifadə haqqında danışırıq. İsrailin qaz idxalını bu gün biz burada danışarkən inşası davam edən Azərbaycandan Türkiyəyə böyük boru xəttinə calaşdırılmasından danışırıq. Şübhəsiz, bu, hər iki ölkənin iqtisadiyyatını gücləndirə biləcək bir istiqamətdir».

B.Netanyahu qeyd edib ki, iki ölkə arasında sıx əlaqələr qarşılıqlı hörmətə əsaslanır: «İsrail bir yəhudi dövlətidir. Azərbaycan müsəlman ölkəsidir və əhalisinin əksəriyyəti müsəlmandır. Burada hər iki ölkənin daha parlaq gələcəyini təmin etmək üçün yəhudilərlə müsəlmanların birgə işləməsinin şahidi oluruq. Bu, indiki dövrdə tolerantlığın, qarşılıqlı hörmətin olmaması fonunda çox parlaq bir nümunədir. İllər boyunca Azərbaycanda yəhudilərə qarşı göstərmiş olduğunuz qarşılıqlı hörmət, gözəl yanaşma bu əlaqələri, Azərbaycana olan rəğbətimizi və heyranlığımızı daha da gücləndirir. İsraildə Azərbaycandan olan 70 min yəhudi, «insan körpüsü» yaşayır. Bundan başqa, dünyaya göstərə biləcəyimiz başqa bir şey var. Dünya çoxlu dözülməzlik, çoxlu zülmət görür. Burada isə müsəlmanlar ilə yəhudilərin arasında əlaqələrin necə ola biləcəyinin, necə qurulmasının bir nümunəsi var».

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə birgə işçi naharı olub. Sonra Prezident İlham Əliyev və Baş nazir Benyamin Netanyahu 1997-ci ilin avqustunda Bakıya səfəri zamanı Baş nazir Benyamin Netanyahunun ulu öndər Heydər Əliyev ilə görüşdüyü Şəfəq iqamətgahına gəliblər. İsrail Dövlətinin Baş naziri və xanımı Şəhidlər xiyabanını ziyarət ediblər. B. Netanyahu Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəmanların xatirəsini yad edib, «Əbədi məşəl» abidəsinin önünə əklil qoyub.

## Dövlət başçısı ATƏT-in yeni həmsədrini qəbul edib

Prezident İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan yeni həmsədri Stefan Viskontini qəbul edib. ATƏT-in Minsk qrupunun yeni həmsədri Stefan Viskonti Fransa Prezidenti Fransua Ollandın salamlarını dövlətimizin başçısına çatdırıb. 15 il bundan əvvəl Azərbaycana səfər etdiyini vurğulayan Stefan Viskonti ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin və əldə olunan nailiyyətlərin onda böyük təəssürat yaratdığını məmnunluqla qeyd edib.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Fransanın Minsk qrupunun həmsədri kimi bundan sonra da fəal iştirak edəcəyinə ümidvar olduğunu bildirib. Münaqişənin artıq uzun illərdir ki, davam etdiyini vurğulayan dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə öz həllini tapmasında ölkəmizin maraqlı olduğunu bir daha vurğulayıb.

Dövlətimizin başçısı Prezident Fransua Ollandın salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Fransa Prezidentinə çatdırmağı xahiş edib..

## Yeni avtomobil yolları istifadəyə verilib

Prezident İlham Əliyev dekabrın 8-də Bakının Suraxanı rayonunda Zığ-Əmircan-Yeni Suraxanı avtomobil yolunun 5 kilometrlik hissəsinin əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib.

Dövlətimizin başçısına məlumat verilib ki, avtomobil yolunun hərəkət hissəsinin eni 10 metrə qədərdir. Yolboyu yeraltı kommunikasiya xətləri yeniləri ilə əvəzlənib. Yola yeni asfalt-beton örtüyü salınıb. Asfalt-beton örtüyündə xüsusi materialdan istifadə olunub ki, bu da səth sularının asfalt-beton örtüyünə daxil olmasının qarşısını almaqla asfalt örtüyünün keyfiyyətini yaxşılaşdırır və uzunömürlülüyünü artırır. Layihə çərçivəsində yolboyu zəruri olan yerlərdə hər iki istiqamət üzrə piyadalar üçün yeni səkilər tikilib. Yol boyunca xüsusi avtobus dayanacaqları quraşdırılıb, səth və qrunt sularının ötürülməsi üçün zəruri olan yerlərdə drenaj borular qoyulub. Zığ-Əmircan-Yeni Suraxanı avtomobil yolunun tikintisi ilə 3 yaşayış məntəqəsinin 63 min nəfər əhalisinin gediş-gəlişi xeyli rahatlaşıb.

Həmin gün Bakının Sabunçu rayonunda əsaslı şəkildə yenidən qurulan Ramana-Maştağa avtomobil yolunun da açılışı olub. Prezident İlham Əliyev yolun açılışında iştirak edib. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib. Bildirilib ki, uzunluğu 11 kilometr olan yolun texniki göstəriciləri görülən işlər nəticəsində müasir tələblər səviyyəsinə çatdırılıb. Yenidən qurulan yol Heydər Əliyev prospekti-Mərdəkan və Zabrat-Maştağa avtomobil yollarını birləşdirərək bu ərazidə yeni bir yol infrastrukturu yaratmağa imkan verib. Əvvəllər yolun hərəkət hissəsinin eni 6-7 metr idi. Tikinti işləri çərçivəsində yolun eni 10 metrə qədər genişləndirilib. İki hərəkət zolaqlı yolun hər iki istiqamətində piyada səkiləri inşa olunub. Yolun 1,7 kilometrlik hissəsi isə yenidən layihələndirilərək inşa edilib. Ümumiyyətlə, 3 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun tikintisi ilə 85 mindən çox sakinin gediş-gəlişi xeyli asanlaşıb və avtonəqliyyat vasitələrinin Heydər Əliyev prospekti, həmçinin Zabrat-Maştağa avtomobil yoluna rahat çıxışı təmin olunub.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsib, inşaatçılarla söhbət edib.

## BU NÖMRƏMİZDƏ

AZƏRBAYCAN-İSRAİL SƏNƏDLƏRİ İMZALANIB 2

İXRACIN TƏŞVİQİ VƏ İNKİŞAFI İQTİSADİYYATIMIZIN POSTNEFT ERASI ÜÇÜN MÜSTƏSNA ƏHƏMİYYƏT DAŞIYIR 3

STRATEJİ HƏDƏFLƏR MÜƏYYƏNLƏŞDİRİLİB 4

PLASTİK KARTLARLA ALIŞ-VERİŞƏ MARAQ ARTIRILMALIDIR 5

## Azərbaycan-İsrail sənədləri imzalanıb

Dekabrın 13-də Azərbaycan Respublikasına işgüzar səfərə gələn İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan-İsrail sənədlərinin imzalanması mərasimi olub.

«Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi və metrologiya sahələrində əməkdaşlıq haqqında» Sazişi Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov və İsrailin ətraf mühitin qorunması naziri Zeev Elkin imzalayıblar.

«Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında» Sazişi Azərbaycanın kənd təsərrüfatı naziri Heydər Əsədov və İsrailin ətraf mühitin qorunması naziri Zeev Elkin imzalayıblar.

«Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında» Konvensiyanı Azərbaycanın vergilər naziri Fazil Məmmədov və İsrailin ətraf mühitin qorunması naziri Zeev Elkin imzalayıblar.



«Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında Birgə Komissiyasının yaradılması haqqında» Anlaşma Memorandumunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və İsrailin ətraf mühitin qorunması naziri Zeev Elkin imzalayıblar.

## Vergi xidməti əməkdaşları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad ediblər



Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, dünya şöhrətli siyasi xadim, ümummilli lider Heydər Əliyevin vəfatından on üç il keçdi. Bu illər ərzində görkəmli şəxsiyyətin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilmişdir. İnsanlar burada xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi Böyük Azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər. Paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanı ziyarət edərək, Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər qoyur, gül dəstələri düzürlər.

Ümummilli lider Heydər Əliyevin vəfatının ildönümü günü - dekabrın 12-də Vergilər Nazirliyinin kollektivi də, hər il olduğu kimi, Fəxri xiyabana gələrək ulu öndərin məzarını ziyarət etmişdir. Dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad edilmiş, məzarı önünə gül-çiçək dəstələri qoyulmuşdur.

## Vergilər Nazirliyinin əməkdaşı IOTA-nın Əsas Strateji İşçi Qrupuna üzv seçilib

Vergilər Nazirliyi 2002-ci ildən tam hüquqlu üzvü olduğu Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) ilə əməkdaşlıq münasibətlərini daim genişləndirir. Bu əməkdaşlıq çərçivəsində qurumun işində yaxından iştirak edən, üç dəfə IOTA-nın İcraiyyə Şurasında təmsil olunan ölkəmizə və Vergilər Nazirliyinin mütəxəssislərinə qurum daxilində böyük etimad və etibar yaranıb. Bu günlərdə isə IOTA azərbaycanlı vergi mütəxəssislərinə daha bir etimad göstərib.

Oktyabr ayında IOTA üzv ölkələrə müraciət edərək təşkilatın yeni strategiyasının hazırlanması məqsədilə Əsas Strateji İşçi Qrupun yaradılmasının nəzərdə tutulduğunu elan etmiş və 45 dövlətin vergi administrasiyalarından həmin qrupa namizəd irəli sürülməsi ilə bağlı təkliflərin verilməsini xahiş etmişdi. Vergilər Nazirliyi İşçi Qrupa Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin rəis müavini, Azərbaycanı IOTA-da təmsil edən baş əlaqələndirici şəxs Orxan Musayevin namizədliyini irəli sürmüş və bu, IOTA tərəfindən təsdiq edilmişdi. Qeyd olunmalıdır ki, Əsas Strateji İşçi Qrupa cəmi 7 namizəd seçilib və Azərbaycandan əlavə, burada Böyük Britaniya, İtaliya, Danimarka, Çex Respublikası, Rumıniya və Bolqarıstan təmsilçisi də yer alıb.

IOTA-nın hazırda qüvvədə olan Strateji Planı 2012-2017-ci illəri əhatə edir. Növbəti illər üçün hazırlanacaq yeni Strateji Planın əsas məqsədi üzv dövlətlərin vergi administrasiyalarının dəyişən qlobal şəraitdə növbəti inkişaf mərhələlərinə qədəm qoymaları üçün daha əlverişli mühit yaratmaq, onların tələblərinə cavab vermək və yardım etməkdir. Yeni Strateji Planın hazırlanması məqsədilə İcraiyyə Şurası tərəfindən üzv ölkələrin vergi administrasiyalarının vəzifəli şəxslərindən ibarət İşçi Qrupun yaradılması qərara alınıb. İşçi Qrupun üzvləri İcraiyyə Şurası ilə mütəmadi məsləhətləşmələr aparmalı, 2017-ci ilin may ayınadək Strateji Planın «Yol xəritəsi»ni hazırlamalıdırlar.

## İşgüzar dairələrin nümayəndələri ilə görüş

Dekabrın 7-də Vergilər Nazirliyində nazirliyin rəhbər vəzifəli şəxsləri ilə işgüzar dairələrin nümayəndələri, o cümlədən «Ernst and Young Azerbaijan», «KPMG Azerbaijan», «Deloitte Azerbaijan», «Caspian Drilling Company», «Socar-Figro» MMC və bir sıra digər şirkətlərin təmsilçiləri ilə görüş keçirilib.

Görüşün keçirilməsində məqsəd Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamında əks olunan islahat istiqamətləri üzrə fikir mübadiləsi aparmaq, işgüzar dairələri bu sahədə aparılan işlər barədə məlumatlandırmaq olub.

Bildirilib ki, sözügedən sərəncam vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi ödəyicilərinə xidmətin səviyyəsinin daha da yüksəldilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi kimi mühüm islahat istiqamətlərini əhatə edir. Sərəncamda diqqət çəkən məsələlərdən biri vergi orqanları ilə vergi ödəyiciləri arasında partnyorluq münasibətlərinin genişləndirilməsi və şəffaflığın artırılması, eləcə də intizamlı vergi ödəyiciləri ilə münasibətlərin yeni keyfiyyət müstəvisinə qaldırılması istiqamətində tədbirlərin həyata keçirilməsidir. Məhz bu tapşırıqların icrası, eləcə də vergi orqanları tərəfindən intizamlı vergi ödəyicilərinə çevik və şəffaf xidmətlərin göstərilməsi, onların vergitutma sahəsində fəaliyyətinin uçotda olduqları vahid struktur tərəfindən əlaqələndirilməsinin təmin edilməsi məqsədilə «Yaşıl dəhliz» prinsipi ilə çalışan «Şəffaf vergi partnyorluğu» idarələri yaradılıb. Görüş iştirakçılarının nəzərinə çatdırılıb ki, «Şəffaf vergi partnyorluğu» idarələrinin yaradılması intizamlı vergi ödəyiciləri ilə işin aparılmasını nəzərdə tutan yeni bir sistemdir. Bu idarələrin xidmət göstərəcəkləri vergi ödəyicilərinə vergi uçotunu şəffaf qaydada aparan, vergi öhdəliklərini vaxtında və tam şəkildə icra edən, vergi hesabatlarını Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə təqdim edən, gücləndirilmiş elektron imzaya sahib olan və yazışmalarını elektron şəkildə aparılmasına üstünlük verən və s. meyarlara cavab verən ödəyicilər aid ediləcək.

Görüş iştirakçılarına, həmçinin, partnyor ödəyicilərə müxtəlif xidmətlərin, o cümlədən innovativ üsullarla xidmətlərin göstərilməsi, belə ödəyicilər üçün təhkim olunacaq kuratorların funksiyaları, partnyor ödəyicilərin müraciətlərinə baxılması qaydaları barədə ətraflı məlumat verilib. Müzakirələr zamanı şirkət təmsilçiləri intizamlı vergi ödəyiciləri ilə digər ödəyicilərin fərqləndirilməsinin təqdirəlayiq olduğunu bildiriblər, bunun vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin şəffaf qurulmasına təkan verəcəyinə əminlik ifadə ediblər.

## «Yaşıl dəhliz» ödəyiciləri üçün innovativ xidmətlər

### *Vergilər Nazirliyi partnyor ödəyicilərə İKT-nin son nailiyyətlərinə söykənən elektron xidmətlər təqdim edəcək*

Gələn ilin yanvar ayının 1-dən başlayaraq, Vergilər Nazirliyi intizamlı vergi ödəyiciləri üçün «Yaşıl dəhliz» prinsipi əsasında fərdi və sürətli xidmətlərin göstərilməsinə başlayacaq. Bu məqsədlə Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti və 1 saylı Vergilər Departamentində «Şəffaf vergi partnyorluğu» idarələri yaradılıb.

Vergilər nazirinin müşaviri, Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Ələkbər Məmmədov sözügedən idarələrin fəaliyyəti və vergi ödəyicilərinə göstəriləcək xidmətlərlə bağlı AZƏRTAC-a eksklüziv müsahibə verib.

Ə.Məmmədov qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı ilə vergi ödəyicilərinin hüquqlarının qorunması, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin daha şəffaf qurulması və üst səviyyəyə çatdırılması əsas hədəflərdən biri kimi müəyyən edilib.

Vergilər Nazirliyi vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin daha da inkişaf etdirilməsi, vergi orqanları tərəfindən belə vergi ödəyicilərinə çevik və şəffaf xidmətlərin göstərilməsi, onların fəaliyyətinin uçotda olduqları vergi orqanlarında vahid struktur tərəfindən əlaqələndirilməsi, bununla da digər vergi ödəyicilərində könüllü əməletmənin təşviq edilməsinə nail olunması istiqamətində bir sıra islahatlar həyata keçirib. Bu islahatların davamı olaraq, eləcə də biznesin və vergi ödəyicilərinin fəaliyyətinin stimullaşdırılması məqsədilə fəaliyyətini şəffaf qaydada həyata keçirən vergi ödəyiciləri üçün «Yaşıl Dəhliz» prinsipi əsasında fərdi və sürətli xidmətlərin göstərilməsinə başlanacaq.

Artıq şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri ilə işlərin tənzimləmə mexanizminin müəyyən edilməsi üçün vergilər naziri Fazil Məmmədovun əmri ilə müvafiq qaydalar da təsdiq edilib. Bu qaydalar şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicilərinin müəyyən edilmə meyarlarını, onlara göstəriləcək xidmətləri, müraciətlərinə baxılması qaydasını və digər məsələlər üzrə prosedurları müəyyən edir.

Vergilər Nazirliyinin partnyor vergi ödəyicisi statusuna malik olmaq üçün vergi ödəyiciləri bir sıra meyarlara cavab verməlidirlər. Belə ödəyicilər vergi hesabatlarını Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işlərin yerinə yetirilməsinə cəlb etdiyi şəxslərin sayını və onların əmək haqlarını düzgün bəyan etməli, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına əsasən aparmalı, gücləndirilmiş elektron imzaya sahib olmalı, yazışmaların elektron şəkildə aparılmasına üstünlük verməli və s. kimi meyarlara cavab verməlidir. Partnyor vergi ödəyicisi statusunu əldə edən ödəyicilərə unikal uçot koda malik bildiriş təqdim olunacaq.

Partnyor ödəyicilərə xidmətlər ərazi məhdudiyyəti nəzərə alınmadan «Yaşıl dəhliz» prinsipi əsasında göstəriləcək. Belə ödəyicilərə elektron xidmətlər, sənəd qəbulu, hazır sənədlərin verilməsi, elektron sənəd mübadiləsi, SMS məlumatlandırma xidməti, habelə ünvanlı (səyyar) xidmətlərin göstərilməsi kimi ənənəvi xidmətlərlə yanaşı, onlara informasiya kommunikasiya texnologiyalarının son nailiyyətlərindən istifadə etməklə innovativ üsullu xidmətlər də göstəriləcək. Bu innovativ üsullu xidmətlərdən biri partnyor ödəyici ilə videobağlantı xidməti olacaq. Videobağlantı nazirliyin internet saytı, Facebook, Skype, Whatsapp və İKT-nin digər imkanlarından istifadə etməklə aparıla bilər.

> Vergilər Nazirliyi vergi ödəyicilərinin partnyor ödəyici kimi fəaliyyət göstərmələrinin stimullaşdırılması məqsədilə onların razılığı əsasında belə ödəyicilərin siyahısını mütəmadi olaraq dərc edəcək

Bundan başqa, Vergilər Nazirliyi yanında Çağrı Mərkəzində partnyor ödəyicilər üçün sürətli xidmətlərin göstərilməsi üçün xüsusi ayrılmış xətdən istifadə imkanı yaradılacaq. Vergi orqanları partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün «dəyirmi masa», seminar və konfranslar keçirə bilər. Eyni zamanda, Vergilər Nazirliyinin Tədris Mərkəzi tərəfindən xüsusi təlim proqramlarının hazırlanması, o cümlədən ixtisas sahələri və innovasiya təlimlərinin onlayn və ya ənənəvi üsullarla ödənişsiz qaydada keçirilməsi imkanları da nəzərdə tutulur.

Vergi ödəyicilərinə xidmət mərkəzlərində də partnyor ödəyicilər üçün xüsusi imkanlar yaradılacaq. Məsələn, partnyor ödəyicilərə «Yaşıl dəhliz» vasitəsilə növbədənkənar xidmət göstəriləcək, onlara xidmət mərkəzlərində sərbəst istifadə üçün özünəxidmət kompüteri ayrılacaq. Bundan başqa, partnyor ödəyicilər üçün hazırlanmış sənədlər əlbəəl götürülməli olduğu halda, onların seçiminə uyğun olaraq sənədin ödəyiciyə çatdırılması üçün zəruri tədbirlər görüləcək.

Ə.Məmmədovun sözlərinə görə, belə ödəyicilərin vergi orqanları ilə əlaqələndirilməsi məqsədilə hər bir partnyor ödəyici üçün vergi əməkdaşlarından kuratorlar ayrılacaq. Kuratorlar partnyor ödəyicilərin müraciəti əsasında onlara ünvanlı xidmətlər göstərəcək, vergi qanunvericiliyində dəyişiklik olarsa, bu barədə vergi ödəyicisini məlumatlandıracaq, onun mənafeləri üçün qabaqlayıcı (profilaktik) tədbirlər həyata keçirəcək, partnyor ödəyicilərin hər hansı uyğunsuzluğu yaranarsa, bu məsələlərin həlli istiqamətində müvafiq tədbirlər görəcək. Bununla yanaşı, vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin partnyor ödəyicilərin iştirakı ilə müzakirə edilməsi və zərurət yarandıqda Vergilər Nazirliyinin müvafiq struktur vahidinin nümayəndələrinin iştirakı ilə birgə görüşlərin təşkil edilməsi imkanı yaradılacaq.

Kurator, bir növ, partnyor ödəyicinin müdafiəçisi rolunda çıxış edəcək. Kuratorlar partnyor vergi ödəyicilərinə göstərilən xidmətlər zamanı meydana çıxan və vergi nəzarəti tədbirləri zamanı yaranan fikir ayrılıqları və mübahisələrin həlli prosesində iştirak edəcək və uyğunsuzluqların həlli üçün lazımi tədbirlər görəcək. Yeri gəlmişkən, vergi qanunvericiliyinin tətbiqi və ziddiyyətli məqamların aydınlaşdırılması zamanı, eləcə də vergi nəzarəti tədbirləri keçiriləcəyi halda, partnyor ödəyicilərin məsələsi xüsusi diqqətə götürüləcək, yaranan fikir ayrılıqları həmin ödəyicinin iştirakı ilə vergi ödəyicisinin istəyinə uyğun olaraq onun iş yerində və ya vergi orqanında, o cümlədən videobağlantı qurmaqla baxılacaq.

Vergilər Nazirliyi vergi ödəyicilərinin partnyor ödəyici kimi fəaliyyət göstərmələrinin stimullaşdırılması məqsədilə onların siyahısını öz razılıqları ilə mütəmadi olaraq saytında yerləşdirəcək. Bu, həmçinin, digər ödəyicilər üçün də nümunə olacaq və vergi ödəyiciləri intizamlı vergi ödəyicisi olmağın üstünlüklərini aydın şəkildə görə biləcəklər.

Vergi orqanları belə ödəyicilərə münasibətdə yaranan ziddiyyətli məqamları qarşılıqlı razılaşma yolu ilə həll etməyə səy göstərəcək. Partnyor ödəyicilərin müraciətlərinə mövcud qanunvericilikdə müəyyən edilmiş müddətlərdən 3 dəfə tez baxılacaq və beləliklə, bütün bunlar partnyor vergi ödəyicilərinin vaxt itkisinin əhəmiyyətli şəkildə azalmasına gətirəcək.

Ə.Məmmədov hesab edir ki, intizamlı vergi ödəyiciləri üçün yaradılan bu şərait vergi orqanları ilə vergi ödəyiciləri arasında partnyorluq münasibətlərinin genişləndirilməsi və şəffaflığın artırılmasına, eləcə də intizamlı vergi ödəyiciləri ilə münasibətlərin yeni keyfiyyət müstəvisinə qaldırılmasına imkan verəcək, ölkədə könüllü əməletmə səviyyəsinin artırılmasına və vergi mədəniyyətinin yüksəldilməsinə xidmət edəcəkdir.

# İxracın təşviqi və inkişafı iqtisadiyyatımızın postneft erası üçün müstəsna əhəmiyyət daşıyır



Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli fərmanı ilə təsdiq edilmiş "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patent almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi qaydası"na uyğun olaraq, Azərbaycan ixracatçılarının vahid ölkə stendi ilə təmsil olunacaqları beynəlxalq sərgi və yarmarkaların siyahısı müəyyənləşdirilib. Mövzu ilə bağlı suallarımızı Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) prezidenti Rüfət Məmmədov cavablandırır.

***- Rüfət müəllim, ölkəmizin ixracatçılarının iştirak edəcəkləri beynəlxalq sərgi və yarmarkaların siyahısı müəyyənləşdirilərkən hansı meyarlar nəzərə alınıb?***

- 2017-ci ildə vahid ölkə stendi ilə iştirak edəcəyimiz 5 sərgi artıq müəyyən olunub. Dubayda «Gulfood», Moskvada «Worldfood Moscow», Almaniyada «Anuga» beynəlxalq ərzaq sərgilərində rəqabətədavamlı məhsul istehsalı ilə seçilən Azərbaycan şirkətləri təmsil olunacaqlar. Bu sərgilərin müəyyənləşdirilməsində həm coğrafi imkanlar, həm ixrac potensialımız, həm də ixracatçılardan daxil olan müraciətlər nəzərə alınıb. Bu gün ölkə iqtisadiyyatında emal sənayesinin təxminən 40%-ni ərzaq istehsalı təşkil edir. Kənd təsərrüfatı sahəsində də mühüm işlər görülür və nəzərəçarpan irəliləyişlər müşahidə olunur. Azərbaycanda son illər ərzində spirtli içkilərin, xüsusilə şərab məhsullarının xarici bazarlara ixrac perspektivlərinin yüksək olduğunu nəzərə alaraq, növbəti ildə dünyanın ən önəmli iki beynəlxalq şərab sərgisində bu məhsulların təqdim olunması nəzərdə tutulur. Bunlar Asiya bölgəsində «Honq-Konq Beynəlxalq Şərab və Spirtli İçkilər Sərgisi», Almaniyada isə bütün Avropa, Amerika qitələrinin şərab istehsalçıları və ixracatçılarını bir araya gətirən «Prowein» beynəlxalq şərab sərgilərdir. Sərgilərin qərarlaşdırılmasında əsas götürülən coğrafi nüanslara diqqət yetirsək görərik ki, Asiya bazarlarına çıxışın təmin olunması və Avropa bazarlarında bir sıra Azərbaycan məhsullarına olan böyük potensialın maksimum dəyərləndirilməsi bizim üçün prioritet istiqamətlərdir. Əlbəttə, biz ənənəvi olan MDB bazarını da unutmuruq. Xüsusilə Rusiya bazarı bizim məhsullarımızın ən önəmli istehlakçılarındandır. Bu səbəbdən, daha öncə də qeyd etdiyim kimi, Rusiya paytaxtında keçirilən ən böyük ərzaq sərgilərindən olan «Worldfood Moscow»da ixracatçılarımızın iştirakı planlaşdırılıb.

Bundan başqa, ixracatçıların fərdi qaydada iştirakı nəzərdə tutulan beynəlxalq sərgi və yarmarkaların siyahısı İqtisadiyyat Nazirliyinin və AZPROMO-nun rəsmi internet səhifəsində, eləcə də bütün KİV-lərdə açıqlanıb. Bu siyahıda, əsasən, ərzaq sənayesi, kənd təsərrüfatı, spirtli və spirtsiz içkilər, tikinti və tikinti materialları ilə bağlı olan sahələri əhatə edən təxminən 250-yə yaxın beynəlxalq sərgi və yarmarka yer alır. Lakin yüngül sənaye, xüsusilə xalçaçılıq, bir sıra sənaye istiqamətləri üzrə keçirilən beynəlxalq sərgilər də siyahıda öz əksini tapıb. Azərbaycan istehsalçıları və ixracatçıları bu sərgilərdə iştirak etmək üçün AZPROMO-ya müraciət edə bilərlər. Onlara yerin icarəsinə, stendin quraşdırılmasına, malların sərgiyə çatdırılmasına xərclənmiş vəsaitin, 5000 manatdan çox olmamaq şərtilə, 30%-i dəyərində dövlət dəstəyi göstəriləcəkdir.

***- «Vahid ölkə stendi» anlayışına bir qədər ətraflı aydınlıq gətirərdiniz...***

- İxracın təşviqi və inkişafı sahəsində beynəlxalq sərgilərdə iştirak çox önəmlidir. Məhsullar sərgilərdə tanıdılır, sərgilərdə reklam olunur. Həmin sərgilərdə təqdim olunan məhsullar üçün potensial idxalçılar, potensial distribütör tapmaq daha asandır. Tanınma və reklam baxımından vahid ölkə stendi çox önəmlidir. Bunun vasitəsilə biz ümumi brendimizi təşviq edirik. Vahid ölkə stendləri, adətən, gələn qonaqların diqqətini daha çox cəlb edir. Sərgilərdə «Made in Azerbaijan» brendini vahid ölkə stendi ilə təşviq edərək ixracatçı üçün öz imkanlarını təqdim etmək baxımından fərdi qaydada iştirakdan daha gözəl şərait yaradırıq.

***- İxracatçıların seçilməsi üçün nəzərdə tutulan müsabiqənin şərtlərində əsas prioritetlər nədən ibarətdir?***

- Geniş anlamda, müsabiqədə hər bir ixracatçı iştirak edə bilər. Burada 3 meyar əsas götürülür: müsabiqədə iştirak edən şirkətin təqdim olunacaq məhsul üzrə istehsal potensialı, məhsulun ixrac potensialı və əlbəttə ki, şirkətin artıq mövcud olan ixrac təcrübəsi. Şirkətlər müsabiqədə iştirak etmək üçün AZPROMO-ya müraciət edərək müvafiq sənədləri təqdim edirlər. Biz həmin məlumatlar əsasında şirkətlərin ixrac-istehsal potensialını araşdırır və eyni zamanda, şirkətlərin bu sahədə ixrac təcrübəsini qiymətləndiririk.

***- «Made in Azerbaijan» brendinin dünyada tanıdılması ilə bağlı tədbirlər planı hansı istiqamətləri əhatə edir?***

- «Made in Azerbaijan» brendinin tanıdılması hər bir şirkətdən, ixracatçıdan, istehsalçıdan və əlbəttə, dövlət dəstəyindən asılı olan məsələdir. Lakin dövlət ixracatçılara nə qədər dəstək göstərsə də, ixracatçının müvafiq qaydalara, tələblərə uyğun istehsal etdiyi məhsulu yoxdursa, bu brendin təşviqindən, ixracın genişləndirilməsindən söhbət gedə bilməz. Ona görə də bu proses beynəlxalq ticarət əməliyyatlarında iştirak edən və həmin əməliyyatlara dəstək verən hər bir istehsalçıdan asılıdır.

Bu il 3 ixrac missiyası təşkil olunub ki, bunlardan ikisi noyabr ayında Çinin Honq-Konq Xüsusi iqtisadi zonasına və Quancou şəhərinə olub. Azərbaycanda istehsal olunan şərabların ixracının təşviqi məqsədilə təşkil olunan missiyalar çərçivəsində ixracatçılarımız Honq-Konqda «Honq-Konq beynəlxalq şərab və spirtli içkilər Sərgisi»ndə və Quancouda «Beynəlxalq şərab sərgisi»ndə iştirak ediblər. Çinə ixrac missiyası zamanı ixracatçılarımız idxalla məşğul olan distribütör şirkətlərlə görüşlər keçirərək müqavilə imzalamağa nail olmuşlar. Müqaviləyə əsasən, Azərbaycandan Çinə 500 min şüşə şərab ixracı nəzərdə tutulur. Yenə bu ilin noyabr ayında Dubaya ixrac missiyası təşkil etmişik. Bu missiyada ərzaq məhsulları, meyvə şirələri və təbii mineral su istehsalçısı olan 20 şirkət iştirak edib. 2017-ci ildə biz daha bir neçə missiya təşkil etməyi planlaşdırırıq. Hədəf Almaniya, Pakistan, Əfqanıstan, Rusiya Federasiyası və Qazaxıstandır. Hər bir missiyanın təşkilində, ilk növbədə, həmin ölkə ilə bağlı ixrac potensialını nəzərə alır, həm özümüzün, həm də qarşı tərəfin idxal potensialını araşdırırıq.

İxrac missiyalarının təşkil olunacağı bazarlar müəyyənləşdirilərkən hədəf ölkələrin digər dövlətlərlə idxal-ixrac münasibətləri araşdırılır, müvafiq sahələr üzrə öz məhsullarımızın rəqabətqabiliyyətliliyi və istehsal gücümüz analiz edilir və bütün bu meyarlar əsasında ixrac missiyasının təşkil olunub-olunmaması ilə bağlı qərar qəbul edilir. Məsələn, fevral ayının əvvəlində Pakistana və Əfqanıstana ixrac missiyalarının təşkilini planlaşdırırıq. Hər iki ölkə böyük həcmdə həm ərzaq, həm sənaye məhsullarını, o cümlədən kimya sənayesi, eləcə də tikinti materiallarını, maşınqayırma avadanlıqlarını idxal edir. Biz bu bazarların təhlilini aparmışıq və Azərbaycan məhsulları üçün kifayət qədər perspektivlərin mövcudluğundan xəbərdarıq.

Qeyd edim ki, bazarları tək biz təhlil etmirik, burada ixracatçılar özləri də böyük rol oynayırlar. Sizin qəzet vasitəsilə istehsalçı və ixracatçılara müraciət etmək istəyirəm ki, bazar araşdırmalarına dəstək mexanizmindən aktiv faydalansınlar. Bu araşdırmaların maliyyələşdirilməsini dövlət öz üzərinə götürüb. İxracatçılar konkret bazar, konkret məhsul üzrə bizə müraciət edirlər. Bu müraciətlər əsasında araşdırma aparıb ixracatçıya təqdim edirik.

Növbəti ildə xarici bazarlarda fəaliyyət göstərən mağaza şəbəkələrində «Made in Azerbaijan» rəflərinin təşkilini planlaşdırırıq. Artıq bir sıra mağaza şəbəkələri ilə danışıqlara başlanılıb. Rəqabət qabiliyyəti yüksək olan bir çox məhsullar üçün hava limanlarında yerləşən iri rüsumsuz ticarət mağazalarında (Duty Free) «Made in Azerbaijan» rəflərinin təşkili istiqamətində işlər aparırıq. Xarici ölkələrdə fəaliyyət göstərən nümayəndəliklərimiz vasitəsilə də məhsulların tanınması ilə bağlı təkliflərə baxılır.

Marketinq dəstəyi məqsədilə bir biz sıra bazarlarda, KİV-də «Made in Azerbaijan» brendinin tanıdılmasını və reklamını planlaşdırırıq. Burda söhbət, konkret olaraq, Azərbaycanın milli sahəvi brendindən gedir. Məsələn, Azərbaycan şirələri, Azərbaycan şərabları, Azərbaycan xalçaları və s. Əlbəttə, ixracın təşviqindən danışırıqsa, burada söhbət əsasən yeni məhsulların xarici bazarlara ixracının təmin olunmasından gedir. Bu məqsədlə dövlət tərəfindən ixracyönümlü məhsulların istehsalı və ya artıq istehsal olunan məhsulların ixrac potensialının artırılması məqsədilə şirkətlər tərəfindən həyata keçirilən tədqiqat-inkişaf proqramlarına və layihələrinə dəstək göstərilməsi nəzərdə tutulur. Bizim istehsalçılarımız və ixracatçılarımız da bu mexanizmlərdən də aktiv faydalanmalıdırlar.

Digər önəmli məsələ ixrac olunan qeyri-neft məhsulları ilə bağlı həyata keçirilən geriödəmə mexanizmidir. Nazirlər Kabinetinin xüsusi qərarı ilə müəyyən olunmuş 15 mal qrupu və 500-dən çox adda məhsula ixracın geriödəmə mexanizmi tətbiq olunur. Bu mexanizmə əsasən, ixrac olunan məhsulun gömrük bəyannaməsində göstərilən ixrac dəyərinin 3%-i baza məbləği olaraq ixracatçıya geri ödənilir. Mexanizmdə hər bir məhsul üzrə əmsal müəyyənləşdirilib. Əgər siz 1 manata üzüm şərabı ixrac edirsinizsə, həmin məhsula 3% baza məbləği tətbiq olunur. Bu zaman 1 manat müqabilində 3 qəpik dövlət tərəfindən sahibkara qaytarılmalıdır. Ancaq üzüm şərabının əmsalının 2 olduğunu nəzərə alsaq, 3%-in 2 misli, yəni 6% ixrac təşviqi sahibkara geri ödənməlidir. Bu da öz növbəsində həm ixrac olunan məhsulların maya dəyərinin aşağı salınması, həm də onların rəqabət qabiliyyətinin artırılması deməkdir. Geriödəmə mexanizmi, həmçinin, ixracla bağlı xərclərin azalmasına da yol açır.

***- Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı nə kimi işlər görülüb və görüləcək?***

- Ümumiyyətlə, ixracın genişləndirilməsi və stimullaşdırılması baxımından sadaladığımız mexanizmlər çox önəmlidir. Lakin bu mexanizmlərlə yanaşı, digər işlər də görülməlidir ki, Azərbaycanda istehsal edilən məhsullar daha çox ixrac olunsun. Burada xüsusilə kiçik və orta sahibkarların rolunu vurğulamaq istəyirəm. Kiçik və orta sahibkarların bu sahədə bilik və təcrübələri böyük şirkətlərlə müqayisədə azdır. Onların ixrac potensialını artırmaq üçün xüsusi bir proqram təşkil etmişik. «İxraca hazır ol» proqramını Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) ilə birgə həyata keçiririk. Proqramın əsas məqsədi kiçik və orta sahibkarların bu sahədə olan biliklərini artırmaqdır. Həmin proqram vasitəsilə bir sıra modullar əsasında istehsalçılara ixrac, ixrac mərhələləri, ixracda atılan hər bir addımla bağlı detalları izah edirik. 2017-ci ildə bu proqram çərçivəsində keçirilən təlimlərdə iştirak edən şirkətlərin Almaniyaya səfərini planlaşdırırıq. Səfər zamanı sahibkarlarımız bu ölkədə fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinə baş çəkəcək, ixracın təşkili baxımından yeni təcrübələr əldə edəcəklər. Bu həm nəzəri, həm də praktiki cəhətdən çox vacibdir.

İxrac öz-özünə əmələ gəlmir. Onu təşkil etmək, bu işi uğurla aparmaq üçün hər bir şirkətdə xüsusi peşəkar komandasının olması vacibdir. Bazar təhlili aparankən ixrac sahəsində təcrübəli, peşəkar işçi qüvvəsinin kifayət qədər olmaması halı ilə qarşılaşırıq. Bu sahədə tələbat çox böyükdür. Bizə tez-tez ixrac menecerləri ilə bağlı sifarişlər gəlir. Növbəti ildə ixrac menecerlərinin hazırlanması kurslarının təşkilini planlaşdırırıq. Bu məsələnin həlli yollarını öz tərəfdaşlarımızla, özəl şirkətlərlə birlikdə məsləhətləşib həyata keçirəcəyik.

**Müsahibəni hazırladı:**
**Fəxriyyə İKRAMQIZI**

# Çağrı Mərkəzinin elektron xidmətləri

Bu gün Vergilər Nazirliyi tərəfindən göstərilən xidmətlərdən 63-ü elektron formada həyata keçirilir. Bu xidmətlərdən bir neçəsini isə Çağrı Mərkəzi göstərir. Mərkəzin elektron xidmətlərindən biri «Sadələşdirilmiş verginin bəyannaməsi»nin təqdim edilməsidir. Bu xidmət gücləndirilmiş elektron imzası olan vergi ödəyicisinin Vergilər Nazirliyinin Çağrı Mərkəzinə müraciəti əsasında 1-ci, 2-ci və 3-cü rüblər üzrə «Sadələşdirilmiş verginin bəyannaməsi»nin hazırlanmasını və elektron qaydada göndərilməsini əhatə edir. Elektron xidmətin icra müddəti icraçının tələb olunan məlumatları daxil etməsindən, istifadəçinin gücləndirilmiş elektron imza vasitəsilə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılı olur.

Çağrı Mərkəzi vasitəsilə vergi növləri barədə məlumatın verilməsi də mümkündür. Bu xidmət vasitəsilə müraciət edənlər Vergilər Nazirliyinin Çağrı Mərkəzinə zəng edərək vergi növləri barədə məlumat əldə edirlər. Qeyri-iş vaxtlarında Çağrı Mərkəzinə müraciət etmiş şəxs 1 düyməsini sıxmaqla Vergilər Nazirliyinə qoşulur, müvafiq dildə məlumat almaq üçün seçdiyi dilə uyğun düyməni seçir, daha sonra vergi növləri barədə məlumat almaq üçün 1 düyməsini sıxır. Bu zaman müraciət etmiş şəxsə müvafiq vergi növünə uyğun düyməni seçməklə məlumat almaq imkanı verilir. Sifariş elektron formada qəbul edilir və müvafiq proqram təminatı tərəfindən qeydiyyatı aparılır. Müraciət etmiş şəxsin seçiminə uyğun olaraq müvafiq vergi növü barədə avtomatik proqram təminatı tərəfindən məlumat verilir.

Daha bir xidmət də Çağrı Mərkəzində qeyri-iş saatlarında zəng etmiş şəxsin sonradan onunla canlı rejimdə əlaqə yaradılması üçün müraciətinin qəbuludur. Bu xidmət vasitəsilə qeyri-iş saatlarında Vergilər Nazirliyinin Çağrı Mərkəzinə zəng edərək elektron operatorun verdiyi məlumatlara qane olmayan şəxslər sonradan onlarla Çağrı Mərkəzinin əməkdaşı tərəfindən əlaqə yaradılması üçün müraciət edə bilərlər. Sifarişlər dərhal qəbul edilir. Qeyri-iş saatlarında müraciət etmiş və elektron operatorun verdiyi məlumatlara qane olmayaraq onunla canlı əlaqə yaradılmasını istəmiş şəxslərə növbəti iş günü ərzində Çağrı Mərkəzinin əməkdaşı tərəfindən əlaqə yaradılaraq müvafiq xidmət göstərilir. Bu xidmət üzrə əsas tələb əlaqə üçün qoyulan telefon nömrələrinin stasionar nömrə olmasıdır.

Çağrı Mərkəzində SMS vasitəsilə daxil olmuş müraciətlərin SMS ilə cavablandırılması xidməti də həyata keçirilir. Bu xidmət «İkitərəfli SMS xidməti»ndən istifadə etmək üçün mobil telefondan «*195*istifadəçi kodu*şifrə#yes» yığmaqla qeydiyyatdan keçmiş vergi ödəyicilərinə vergi orqanı tərəfindən vergi öhdəlikləri və vergilər barədə məlumatlar təqdim edilməsini nəzərdə tutur. Məlumatlar vergi ödəyicilərinə iki formada təqdim edilir:

- Abunə olmaqla - bu zaman vergi ödəyicilərinə vergi öhdəlikləri və vergilər barədə məlumatlar göndərilir.

- Sorğu göndərməklə - bu zaman «İkitərəfli SMS xidməti»nin istifadəçiləri qeydiyyatdan keçmiş hər hansı bir nömrədən müvafiq rəqəmləri yazıb 8195 nömrəsinə göndərir.

Abunə olan vergi ödəyicilərinə məlumatlar əməliyyatın həyata keçirildiyi gündən sonrakı gün, sorğu zamanı isə sorğu edilən gün ərzində göndərilir.

«Çağrı Mərkəzində vergi borcu barədə məlumatın təqdim edilməsi» xidməti vasitəsilə vergi ödəyiciləri mərkəzə zəng edərək dövlət büdcəsinə olan vergi borcları barədə məlumat əldə edirlər. Bunun üçün qeyri-iş saatlarında Çağrı Mərkəzinə zəng etmiş vergi ödəyicisi 1 düyməsini sıxmaqla Vergilər Nazirliyinə qoşulur, müvafiq dildə məlumat almaq üçün seçdiyi dilə uyğun olan düyməni seçir, daha sonra vergi borcu barədə məlumat almaq üçün 2 düyməsini sıxır. İş saatlarında isə Çağrı Mərkəzinə zəng etmiş vergi ödəyicisi 1 düyməsini sıxmaqla Vergilər Nazirliyinə qoşulur, dövlət büdcəsinə olan vergi borcu barədə məlumat almaq üçün 3 düyməsini sıxır, daha sonra isə müvafiq dildə məlumat almaq üçün seçdiyi dilə uyğun olan düyməni seçir. Hər iki halda müvafiq seçimlər edildikdən sonra vergi ödəyicisi vergi orqanından verilmiş eyniləşdirmə nömrəsini (VÖEN) daxil etməli və «#» düyməsini sıxmalıdır.

Çağrı Mərkəzində vergidən yayınma halları və vergi orqanının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi) barədə müraciətlərin qəbulu xidməti də göstərilir. Bu xidmət vasitəsilə bütün fiziki və hüquqi şəxslər vergidən yayınma halları və vergi orqanının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi) barədə müraciət edə bilərlər. Müraciət edən adını, atasının adını, soyadını, ünvanını və ya işlədiyi yeri bildirmədikdə, habelə şikayətdə qaldırılan məsələlərin həlli dövlət vergi orqanlarının səlahiyyətlərinə aid olmadıqda şikayətə baxılması mümkün olmur. Bütün fiziki və hüquqi şəxslərin vergidən yayınma halları və vergi orqanının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi) barədə müraciətləri qəbul olunur və müraciət əsasında şikayət vərəqəsi tərtib olunur.

Çağrı Mərkəzində vergi qanunvericiliyi və elektron xidmətlərin tətbiqi ilə bağlı suallar da cavablandırılır. Bu xidmət vasitəsilə Vergilər Nazirliyinin Çağrı Mərkəzinə zəng etməklə vergi ödəyiciləri vergi qanunvericiliyi və elektron xidmətlərin tətbiqinə aid suallara operativ cavab və elektron xidmətlərin tətbiqi zamanı yaranmış texniki problemlərin aradan qaldırılmasına dair yardım ala bilərlər. Xidmət real vaxt rejimində həyata keçirilərək daxil olmuş müraciətlər dərhal cavablandırılır. Müraciət edən şəxsin sualına tam əhatəli cavab vermək mümkün olmadıqda isə onunla təkrar əlaqə yaradılaraq məlumatlandırılması üçün müraciət vərəqəsi tərtib edilir.



«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» dövlət başçısının 2016-cı il 4 avqust tarixli Sərəncamı ilə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə Vergilər Nazirliyinin Kollegiyası tərəfindən «Fiziki şəxsin fəaliyyətinin onlayn dayandırılması», «Hüquqi şəxsin fəaliyyətinin onlayn dayandırılması», «Fiziki şəxsin fəaliyyətinin onlayn bərpası» və «Hüquqi şəxsin fəaliyyətinin onlayn bərpası» elektron xidmətləri üzrə inzibati reqlamentləri yeni redaksiyada verilmişdir. Bundan sonra sözügedən xidmətlərin göstərilməsi İnternet Vergi İdarəsi Portalı ilə yanaşı, Çağrı Mərkəzi tərəfindən də həyata keçirilir. Çağrı Mərkəzi vasitəsilə həyata keçirilən bu elektron xidmətlərin icra müddəti tələb olunan məlumatların istifadəçinin səlahiyyətli nümayəndəsi tərəfindən təqdim edilməsindən, icraçının həmin məlumatları sistemə daxil etməsindən, istifadəçinin səlahiyyətli nümayəndəsinin gücləndirilmiş elektron imza vasitəsilə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılı olaraq 5-7 dəqiqədir.

**Aytən NƏBİYEVA**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# ƏDV öhdəliyi

***Rezident müəssisə tərəfindən sərgidə nümayiş etdirmək məqsədilə Azərbaycan Respublikasına müvəqqəti idxal olunan mallara görə ƏDV öhdəliyi yaranırmı?***

Vergi Məcəlləsinin (VM) 16.1.6-cı maddəsinə görə, bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan məlumatları və sənədləri, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, özünün və filiallarının elektron daşıyıcılarında olan məlumatlara birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla, həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

Vergi Məcəlləsinin 159.1-ci maddəsinə əsasən, malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal ƏDV-nin vergitutma obyektidir.

Vergi Məcəlləsinin 159.3-cü maddəsində qeyd edilmişdir ki, malların idxalı bu fəsilə uyğun olaraq vergidən azad edilən idxal istisna edilməklə, vergi tutulan idxal sayılır. Tranzit yük daşınması qaydasında, müvəqqəti idxal şəklində Azərbaycan Respublikası ərazisinə buraxılan mallar və ya gömrük qanunvericiliyinə uyğun olaraq daxili istehlak üçün idxal edilmiş və ya qəbul olunmuş sayılmayan mallar ƏDV-nin məqsədləri üçün idxal malları hesab edilmir.

**Göstərilənlərə əsasən:**

Müvəqqəti idxal şəklində Azərbaycan Respublikası ərazisinə buraxılan mallar ƏDV-nin məqsədləri üçün idxal malları hesab edilmir.

Müvəqqəti idxal şəklində malların idxalı istisna olmaqla, idxal edilmiş malların təqdim edilməsi ümumi qaydada ƏDV-yə cəlb olunur. İdxal edilmiş mallar, o cümlədən müvəqqəti idxal şəklində idxal edilmiş mallar hesabat dövründə təqdim edilmədiyi halda, vergi ödəyicisi bu barədə vergi orqanının tələbi ilə zəruri olan məlumatları və sənədləri vergi orqanına təqdim etməlidir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2017-ci il dövlət büdcəsi xərclərinin **5 milyard 615 milyon** manatı konkret proqram və tədbirlərin maliyyələşməsinə yönəldiləcək.
- 2016-cı ilin yanvar-noyabr ayları ərzində Bakı Fond Birjasında bütün alətlər üzrə keçirilən əqdlərin ümumi həcmi təqribən **5,21 milyard** manat təşkil edib.
- Azərbaycan Dövlət Neft Fondu Azəri-Çıraq-Günəşli yataqları üzrə bu ilin 11 ayında **4 mlrd. 577 mln.** ABŞ dolları həcmində gəlir əldə edib.
- Asiya İnkişaf Bankının Direktorlar Şurası «Cənub Qaz Dəhlizi» layihəsi çərçivəsində Azərbaycanın «Şahdəniz» qaz yatağının işlənməsinin ikinci mərhələsinə **1 milyard** dollar həcmində kredit ayrılmasını təsdiqləyib.
- «Transxəzər» Beynəlxalq nəqliyyat marşrutu üzrə konteyner qatarlarının sayının 2020-ci ilə kimi **1000** vahidə çatdırılması planlaşdırılır.

# Strateji hədəflər müəyyənləşdirilib

Prezident İlham Əliyevin imzaladığı «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» fərmanda iqtisadiyyatın çoxşaxəli inkişafı, qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı ilə bağlı əsas hədəflər müəyyən olunub. Ölkəmizin iqtisadi qurumları və iqtisadi komanda ilə yanaşı, yerli və xarici ekspertlərin, təcrübəli mütəxəssislərin, məsləhətçi şirkətlərin və elmi təşkilatların iştirakı ilə ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq şəraitində hazırlanan «Strateji yol xəritəsi» 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə əks etdirir.

**Xarici investisiyaların stimullaşdırılması**

«Strateji yol xəritəsi»nin başlıca hədəflərindən biri yaxın perspektivdə ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması, sərmayə qoymuş investorların fəaliyyətinin daha da artırılmasıdır. Sənədə əsasən, rəqabət üstünlüyü olan konkret investisiya layihələri maraqlı xarici sərmayədarlara təqdim ediləcək, sərmayəçilər üçün investisiya imtiyazları və təklifləri veriləcək. Xarici investorların yerli məhsul və xidmətlərə daha çox tələbatının yaradılması üçün mexanizmlər qurulacaq. İqtisadiyyat Nazirliyinin əməkdaşı Samir Vəliyev bildirib ki, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi Azərbaycan dövlətinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Respublikamızda investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilərək hüquqi baza yaradılıb. 2004-2016-cı illər ərzində ölkəmizdə 7 mindən artıq xarici investisiyalı şirkət qeydiyyatdan keçib. Bunlar ticarət, xidmət, tikinti, sənaye, nəqliyyat, bank və sığorta, rabitə, kənd təsərrüfatı və digər sahələri əhatə edir. Ölkəmizə investisiya yatıran xarici şirkətlərin əksəriyyəti dünyanın inkişaf etmiş 20 ölkəsinə aiddir. Onların sırasında Böyük Britaniya, ABŞ, Yaponiya, Rusiya Federasiyası, Almaniya, Cənubi Koreya və Türkiyə əsas yer tutur.

**Sərmayələr qeyri-neft sektoruna yönləndiriləcək**

Xarici şirkətlərin Azərbaycanda fəaliyyətini stimullaşdırmaq və iqtisadiyyata xarici investisiyalar cəlb etmək məqsədilə hökumət tərəfindən «açıq qapı» siyasəti həyata keçiriləcək. İnvestisiya siyasəti ilə bağlı hüquqi mexanizmlər daha da təkmilləşdiriləcək, xarici sərmayəçilərin hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılacaq, əlverişli biznes mühiti təmin ediləcək. Xarici investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında yeni sazişlərin imzalanması, investisiyaların təşviqi sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və investorlar üçün hüquqi təminatın daha da genişləndirilməsi, bu sahədə stimullaşdırıcı tədbirlərin sürətləndirilməsi (vergi sistemində və gömrük tariflərində güzəştlərin tətbiqi və s.), investisiyaların qeyri-neft sektoru üzrə təşviqi, sərmayələrin ixracyönümlü sahələrə yönləndirilməsi nəzərdə tutulur.

Qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-dəki payının hazırkı 2,627 faizlik göstəricidən 2025-ci ilə qədər 4 faizə çatdırılması əsas strateji planlardandır.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynovun sözlərinə görə, ölkəyə xarici sərmayələrin axınını təmin etmək üçün qanunvericilikdə əlavə dəyişikliklərin olunması nəzərdə tutulur. Xarici biznesin fəaliyyətinə münbit şərait yaratmaq üçün Rəqabət Məcəlləsinin qəbulu nəzərdə tutulur. Bu sənəd əlverişli investisiya mühitinin daha da genişlənməsi, rəqabətliliyin güclənməsi baxımından zəruri hesab edilir.

**Xarici kapitalın cəlb olunması üçün əlverişli vergi mühiti mövcuddur**

Ölkəmizdə indiyədək həyata keçirilən səmərəli vergi siyasəti də xarici sərmayələrin axınına geniş şərait yaradıb. Son illərdə hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi ölkənin biznes mühitinə müsbət təsir göstərib. Fiziki və hüquqi şəxslərin vergi uçotunun Vergilər Nazirliyi tərəfindən elektron qaydada həyata keçirilməsi vətəndaşların sahibkarlıq fəaliyyətinə başlamasını xeyli asanlaşdırıb. Qanunvericiliyə əsasən, hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz həyata keçirilir. Yeni müəssisə yaratmaq istəyən sahibkarlar qeydiyyat prosesinə cəmi bir neçə dəqiqə vaxt sərf edirlər. Bu amillər son illərdə xarici investisiyaya malik şirkətlərin sənaye, tikinti və nəqliyyat, turizm, xidmət sahələrinə marağının artmasına səbəb olub.

İnvestisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırır. Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Ülvi Yusifovun sözlərinə görə, vergi sahəsində aparılacaq islahatların istiqamətlərindən biri də Azərbaycan Respublikası ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq sazişlərin inzibatçılıq qaydalarının sadələşdirilməsidir. Hazırda 51 dövlətlə bu cür saziş imzalanıb. Sazişlərin inzibatçılıq qaydalarının təkmilləşdirilməsi ilə bağlı işlər çərçivəsində rezident və qeyri-rezident şəxslərdən daxil olan müraciətlərin elektronlaşdırılması və sadələşdirilməsi, ərizə formalarının və tələb olunan inzibati prosedurların azaldılması nəzərdə tutulur. İndiki inzibatçılıq qaydalarına əsasən, sənədlər kağız formasında tərtib edilir, vergi orqanı əməkdaşları ərizə formalarını doldurmaq üçün xeyli vaxt sərf edirlər. İnzibatçılığın sadələşdirilməsindən sonra isə bu proses elektronlaşdırılacaq və müraciət edən şəxslər tərəfindən müvafiq ərizələrin doldurulmasına sərf olunan vaxt və inzibati yük azalacaq. Bu, həm də vergi orqanları tərəfindən müraciətlərə baxılmasının sürətləndirilməsinə xidmət edəcək.

Hazırda ikiqat vergitutmanın aradan qaldırılması haqqında 10-a yaxın ölkə ilə imzalanmağa hazır sazişlər var. Sazişlərlə yanaşı, digər dövlətlərlə vergi məlumatlarının mübadiləsi üçün hüquqi əsas təşkil edən kifayət qədər geniş hüquq-müqavilə bazası mövcuddur və bunun əhatə dairəsi genişlənməkdə davam edir. İndiyə qədər Vergilər Nazirliyinə dünyanın 111 dövlətinin vergi orqanları ilə vergi məlumatlarının mübadiləsinə imkan verən beynəlxalq müqavilələr imzalanıb. Vergilərə dair məlumat mübadiləsi, əsasən. sorğu əsasında həyata keçirilir.

> İnvestisiyaların təşviqi və qorunması, gəlirlərə və əmlaka vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırır

**Elbrus CƏFƏRLİ**

# Valyuta əməliyyatlarına nəzarət mexanizmi sərtləşdirilir

Tədiyyə balansının və valyuta bazarının tarazlaşdırılmasında mühüm rol oynayan valyuta nəzarəti mexanizminin effektivliyinin artırılması məqsədilə Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin 28 noyabr 2016-cı il tarixli qərarı ilə «Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması qaydaları» yeni redaksiyada qəbul edilib. Qaydalar 2016-cı il dekabrın 8-dən qüvvəyə minib.

Mərkəzi Bankın məlumatına görə, qaydalarda cari valyuta əməliyyatlarında, o cümlədən təhsil və müalicə haqlarının köçürülməsi ilə bağlı valyuta ödənişlərində sərbəstlik saxlanılmaqla bəzi köçürmələrdə müəyyən limitlərin tətbiqi (hesab açmadan və şəxsi məqsədlər üçün aparılan köçürmələrdə rezident və qeyri-rezident fiziki şəxsin bir əməliyyat günü ərzində 1000 ABŞ dolları ekvivalentinədək, ay ərzində isə cəmi 10 min ABŞ dolları ekvivalentinədək maksimum məbləği, yaxın qohumlara köçürülən vəsaitin ay ərzində cəmi 10 min ABŞ dolları ekvivalentinədək) nəzərdə tutulur. Bununla bərabər, rezidentlərin xarici banklardakı hesablarına pul köçürmələrinin aparılması sahəsində mövcud sərbəstlik aradan qaldırılıb.

Hüquqşünas Əkrəm Həsənovun sözlərinə görə, yeni qaydalar ümumən əvvəlkini təkrarlayır, lakin daha yığcam və texniki cəhətdən daha təkmildir: «Üç əsas dəyişikliyi qeyd etmək lazımdır:

- Birincisi, bank hesabı açılmadan vətəndaşın xaricə köçürmələrinə aylıq 10.000 dollar məbləğində limit qoyulub (gündəlik 1000 dollarlıq limit saxlanılmaqla). Düzdür, reallıqda buna nəzarət etmək praktiki mümkün deyil, çünki vətəndaş bir neçə bank vasitəsilə də bu köçürmələri edə bilər və bu halda bankların limitə nəzarət imkanı olmayacaq (köçürmə bank sirri olduğu üçün bir bankın digər bankdakı əməliyyat haqda məlumat alması mümkün deyil). 32 bankın hərəsi vasitəsilə 10.000 dollar köçürmə edilsə, ayda 320.000 dollar edir. Bu halda vətəndaşın hər hansı məsuliyyətindən də söhbət gedə bilməz. Çünki Mərkəzi Bankın qaydaları yalnız banklar üçün məcburidir.

- İkinci əsas dəyişikliyə görə analoji məhdudiyyət (ayda 10.000 dollar) vətəndaşın bank hesabı vasitəsilə yaxın qohumlarına köçürmələrə də şamil ediləcək: «İndiyədək yaxın qohumlara bank hesabı vasitəsilə köçürmələr məhdudiyyətsiz idi. Lakin təbii ki, yuxarıdakı halda olduğu kimi, burada da məhdudiyyətdən yayınmaq çətin deyil: sadəcə, fərqli banklar vasitəsilə köçürmə etmək olar».

- Üçüncü ən vacib yenilik isə vətəndaşın və hüquqi şəxsin xarici bankdakı hesabına depozit qoyulması məqsədilə məhdudiyyətsiz köçürmə etmə imkanının ləğv edilməsidir.

Ə.Həsənov demişdir: «İndiyədək xaricdə hesabın var idisə, ora istənilən qədər pul köçürə bilərdin. Başqa sözlə, istənilən ölkədə hesab açıb ora istənilən qədər pul köçürə bildiyin üçün digər məhdudiyyətlər əhəmiyyətini itirirdi. Nəhayət ki, Mərkəzi Bank qaydaları təkmilləşdirib».

Qeyd edək ki, qaydalarda xarici investisiyanın repartriasiyası, investisiyalar üzrə əldə edilən istənilən növ gəlirlərin məhdudiyyətsiz köçürülməsi rejimi dəyişdirilmədən, olduğu kimi saxlanılıb.

> Yeni qaydalarda rezidentlərin xarici banklardakı hesablarına pul köçürmələrinin aparılması sahəsində mövcud sərbəstlik aradan qaldırılıb

**Fəxriyyə İKRAMQIZI**

# İkiqat vergitutmanın aradan qaldırılması ilə bağlı danışıqlar davam edir

«Azərbaycan və Malayziya hökumətləri arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında konvensiya» ekspertlər səviyyəsində danışıqların birinci mərhələsi 2014-cü ilin noyabrında Bakı şəhərində keçirilmişdi.

Ekspertlər səviyyəsində danışıqların ikinci mərhələsi isə bu ilin 14-18 noyabr tarixlərində Malayziyada keçirilmişdir. Danışıqlarda saziş layihəsinin bütün müddəaları üzrə ekspertlər səviyyəsində əsasən razılıq əldə edilmişdir.

Görüşdə Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin Beynəlxalq müqavilələr şöbəsinin rəisi, idarə rəisinin müavini İlqar Əkbərli və həmin Baş İdarənin əməkdaşı Ceyhun İsmayılov iştirak etmişdir.

# Təcrübə mübadiləsi aparılıb

Vergilər Nazirliyinin nümayəndə heyəti insan resurslarının inkişafı, təlim-tədris proseslərinin təşkili və həyata keçirilməsi sahəsində İspaniya Krallığının təcrübəsinin öyrənilməsi məqsədilə Madrid şəhərində dörd günlük səfərdə olmuşdur. Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov, Mərkəzin təhsil işləri üzrə rəis müavini Ceyhun Mehdiyev və nazirliyin İnsan resursları idarəsinin Təhsil və inkişaf şöbəsinin rəisi Nərmin Mirzəyevanın təmsil olunduğu nümayəndə heyətinə İspaniya Krallığının Maliyyə Nazirliyi yanında Vergi Agentliyində təlim proseslərinin hüquqi tənzimlənməsi əsasları, hüquqi aktlar, təlim tələbatlarının müəyyən edilməsi prosedurları, təlim növləri və planları, təlim kurslarının tədris-mövzu planları, təlim proseslərinin elektron idarə edilməsi sistemi və qiymətləndirilməsi, təlimçilərin motivasiyası, həmçinin ərazi vergi orqanları arasında iş bölgüsünün aparılması meyarları barədə məlumatlar verilmişdir.

Tədbir çərçivəsində İspaniya Krallığının aidiyyəti qurumlarının rəhbər vəzifəli şəxsləri ilə keçirilən görüşlər zamanı qarşılıqlı fikir və təcrübə mübadiləsi aparılmış, müvafiq sahələrdə Azərbaycan təcrübəsi ispan həmkarların diqqətinə çatdırılmışdır.

# İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər bir arada...

Türkiyə Cümhuriyyətinin Ankara şəhərində İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin qeydiyyat orqanları arasında əməkdaşlıq və məlumat mübadiləsi üzrə ikinci seminar keçirilmişdir.

Tədbirdə qeydiyyat orqanları arasında beynəlxalq əməkdaşlıq, İƏT üzvü olan dövlətlərin ticarət imkanları üzrə statistika, Avropa Birliyinin Sahibkarlıq fəaliyyətinin qeydiyyatı üzrə əməkdaşlıq sahəsində direktivləri və son nailiyyətləri mövzusunda təqdimatlar, eləcə də üzv dövlətlərin milli sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyat sistemləri ilə tanışlıq və qarşılıqlı əməkdaşlıq sahəsində təkliflər dinlənilmişdir.

Seminarda ölkəmizi Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin rəisi Samir Seyidəhmədli təmsil etmişdir.

# Plastik kartlarla alış-verişə maraq artırılmalıdır

Nazirlər Kabinetinin «Azərbaycan ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları»nda POS-terminalların hansı obyektlərdə quraşdırılmalı olduğu konkret bəndlə göstərilmişdir: dövriyyəsindən və ərazisindən asılı olmayaraq bütün əlavə dəyər vergisi ödəyicilərində POS-terminalların quraşdırılması zəruridir. Eləcə də dövriyyəsindən və ərazisindən asılı olmayaraq, avtomobil, mebel satışı üzrə ixtisaslaşmış müəssisələr, idman-sağlamlıq kompleksləri, səhiyyə, istirahət, turizm və əyləncə obyektləri, mehmanxanalar, şadlıq evləri, yanacaqdoldurma məntəqələrində POS-terminalların quraşdırılması məcburidir. Bundan əlavə, rüb uzrə orta aylıq dövriyyəsi 2 min manatdan çox olan vergi ödəyicilərinin bütün təsərrüfat subyektlərində POS-terminallar quraşdırılmalıdır.

Mərkəzi Bankdan verilən məlumata görə, bu il noyabrın 1-nə Azərbaycanda quraşdırılmış POS-terminalların ümumi sayı 68 min 152 ədəd təşkil edib. Ölkə üzrə mövcud POS-terminalların 38 min 289 ədədi Bakıda, 29 min 863 ədədi regionlarda yerləşir. POS-terminalların 67 min 107 ədədi pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində quraşdırılıb.

POS-terminallarla nağsız əməliyyatların aparılması da ilbəil artır. Hazırda bu sahələri kompleks şəkildə əhatə edən bir neçə əsas istiqamət üzərində yeni konsepsiya qurulub. Bunlar elektron ödəniş sistemlərinin infrastruktur imkanlarının genişləndirilməsi, elektron ödəniş xidmətlərinin institusional bazasının gücləndirilməsi, ödəniş xidmətlərindən istifadə effektivliyinin artırılması, əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə cəlb olunması və bu xidmətlərdən istifadə üzrə maarifləndirmə kimi amilləri əhatə edir. Dünya təcrübəsində vergilərdən yayınmanın qarşısının alınması, şəffaflıq və hesabatlılığın vacib amili kimi nəzərdən keçirilən nağdsız ödənişlərin həcminin genişləndirilməsi üçün maarifləndirməyə və təbliğata daha geniş yer verilir. Yəni nağdsız ödənişlərin inkişafi məsələsi təkcə dövlət strukturlarının işi kimi məhdudlaşdırılmır. Mətbuat və vətəndaş cəmiyyəti institutları bu sahədə fəallıq nümayiş etdirməli, nağdsız ödənişlərin üstünlüklərini, əhəmiyyətini insanlara geniş izah etməlidir. Çünki vətəndaşlar lazımi səviyyədə maarifləndirilməsə, nağdsız ödəniş vasitələrinin inkişafı istiqamətində atılan addımlar arzu edilən səmərəni verməyəcək. Nəzərə almaq lazımdır ki, aidiyyəti dövlət qurumlarının məqsədyönlü və ardıcıl tədbirlərinə baxmayaraq, bu gün ölkədəki ticarət və xidmət obyektlərində quraşdırılmış POS-terminallardan istifadə sahəsində vətəndaş fəallığı arzuolunan səviyyədə deyil.

Milli Məclisin sosial siyasət komitəsinin üzvü Xanhüseyn Kazımlı nağdsız hesablaşmaların stimullaşdırılması üçün qanunvericilikdə bir sıra əlavələrin edilməsini zəruri hesab edir: «Hər bir istehlakçı və sahibkar nağdsız əməliyyatların aparılmasında maraqlı olmalıdır. Son illərdə banklar, o cümlədən iri ticarət müəssisələri plastik kartlarla alış-veriş edən vətəndaşlar üçün müəyyən stimullaşdırıcı kampaniyalar təşkil edirlər. Hesab edirik ki, gələcəkdə bu addımlar daha da genişləndirilməli, vətəndaşlarda plastik kartlarla alış-verişə maraq gücləndirilməlidir. Əhalinin geniş kütlələrinin təsərrüfat subyektlərində quraşdırılmış POS-terminallardan istifadəyə cəlb olunması üçün digər inzibati tədbirlərlə yanaşı, onlar arasında maarifləndirmə, məlumatlandırma işləri və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi üçün ayrıca bir qanun layihəsinin hazırlanmasına ehtiyac var».

Millət vəkilinin fikrincə, qəbul olunan sənədlər ödəniş sistemləri sektorunda əhəmiyyətli dəyişikliklərin baş verməsinə səbəb olacaq, nağdsız ödənişlər bazarının inkişafı bank sektorunda aktivlərin, kredit resurslarının və potensialının iki dəfə artmasına, həm əhali, həm də biznes kreditləşdirilməsi üçün geniş imkanların açılmasına stimul verəcək. Eyni zamanda, ölkəmizdə elektron ödəniş xidmətlərinin infrastruktur imkanlarının genişləndirilməsi, elektron ödəniş xidmətlərinin institusional bazasının gücləndirilməsi, əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə cəlb edilməsi kimi atılan addımlar müsbət fayda verəcək.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov vətəndaşların bu sahədə məlumatlandırılmasını mühüm fəaliyyət istiqamətlərindən biri hesab edir: «Hər həftə bizim təşkilata nağdsız ödənişlər zamanı meydana çıxan problemlərlə əlaqədar müraciət daxil olur. Həmin müraciətlərin bir qismi nağdsız formada alınan malın necə qaytarılması ilə bağlıdır. Qanunvericiliyə görə, istehlakçıların 14 gün müddətində aldıqları malı qaytarmaq hüququ var. Lakin bəzən nağdsız qaydada ödəniş edərək müəyyən malları alan istehlakçı onu qaytarmaq istədikdə, satıcılar guya bunun mümkün olmadığını iddia edirlər. Səbəb kimi də istehlakçının POS-terminalla ödəniş etməsi, bu halda pulun geri qaytarılmasının qeyri-mümkünlüyü göstərilir. Halbuki POS-terminallarla ödənilən vəsaitin geri qaytarılması texniki cəhətdən tam mümkündür. Biz təbliğat işlərinə geniş yer verməklə yanaşı, bu cür texniki problemləri aradan qaldırmalı, vətəndaşları nağdsız ödənişlərin təhlükəsizliyinə inandırmalıyıq».



“ Dövlət qurumlarının məqsədyönlü və ardıcıl tədbirlərinə baxmayaraq, bu gün ölkədəki ticarət və xidmət obyektlərində quraşdırılmış POS-terminallardan istifadə sahəsində vətəndaş fəallığı arzuolunan səviyyədə deyil

**Rəşad SADIQOV**

## BİR CÜMLƏ - BİR XƏBƏR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərən www.az-export.az saytı yaradılacaq.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi gələn il fevralın 26-dan martın 2-dək Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək «Gulfood» beynəlxalq ərzaq sərgisində vahid ölkə stendində iştirak üçün ixracatçıların müraciətlərinin qəbulunu elan edib.

Riqada keçirilmiş beşinci beynəlxalq elmi-praktik konfransda Azərbaycanın iqtisadi uğurları haqda məlumat verilib.

Britaniya Standartlar İnstitutu ilə Azərbaycanın yerli sertifikatlaşdırma orqanları arasında «İxracyönümlü məhsulların Avropa bazarına çıxarılmasına dair müştərək sertifikatlaşdırma fəaliyyətinin aparılmasına dair» Əməkdaşlıq Memorandumu imzalanacaq.

Rusiya və Azərbaycan poçt sahəsində əməkdaşlıq üzrə saziş imzalamağa hazırlaşır.

Belarus Prezidenti Aleksandr Lukaşenkonun Bakıya rəsmi səfəri zamanı «BELAVTOMAZ» və «MTZ-Holdinq» şirkətlərinin rəhbərliyi «Gəncə Avtomobil Zavodu» İB ilə 2016-2017-ci illərdə avtomobil və traktor hissələrinin tədarükünə dair müqavilə imzalanıb.

Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsi üzrə işlərin 55 faizi görülüb.

Ləğv prosesində olan bankların qorunmayan əmanətlərinin ödənilməsinə başlanılıb.

Kənd Təsərrüfatı Nazirliyi istifadə olunmayan torpaqların dövriyyəyə qaytarılması barədə xüsusi qaydalar hazırlayıb.

Avropa Qonşuluq Alətinin 2015-ci il üzrə Azərbaycan üçün Fəaliyyət Proqramı çərçivəsində 14,5 milyon avro dəyərində «Azərbaycanın Əlaqəli Regional İnkişafı Proqramı»nın Maliyyələşdirmə Sazişi imzalanıb.


## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin dekabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin dekabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin
195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının
«Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və
www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**


# Vergi islahatları ictimaiyyətin müzakirəsində...

*Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradıb. İslahatların əhatə dairəsi, iqtisadi, sosial və ictimai əhəmiyyəti böyük olduğundan geniş ictimai müzakirələrə yol açıb. Müxtəlif ekspertlər, sahibkarlıq subyektlərinin nümayəndələri və iş adamları vergi sistemində gözlənilən dəyişikliklərə, habelə tətbiq edilməsi nəzərdə tutulan yeniliklərə dair öz fikirlərini bildirir, islahatların gözlənilən ictimai faydası barədə diskussiya aparırlar.*

*«Vergilər» qəzeti də bu fikir mübadiləsinə və həyata keçiriləcək vergi islahatlarının ictimai müzakirəsinə töhfə vermək məqsədilə ixtisaslaşmış mütəxəssislərin, dünya təcrübəsinə bələd olan ekspertlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin və iş adamlarının mövqeyini işıqlandırır, onların vergi qanunvericiliyi və inzibatçılığı sahəsində təkliflərinə və şərhlərinə öz səhifələrində yer ayırır.*

## «Rəqəmsal iqtisadiyyat»ın vergiyə cəlb olunmasında güzəştlər tətbiq edilməlidir



Osman Gündüz,
*"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru*

Müasir dövrdə dünyada İKT vasitəsilə həyata keçirilən biznes sektoru («rəqəmsal iqtisadiyyat») ən inkişaf etmiş platformalardan birinə çevrilib. Azərbaycanda bu sektorun müxtəlif sahələri, məsələn, e-ticarət, rəqəmsal biznes müəyyən dərəcədə inkişaf edib. Son illərdə aparılan əməliyyatların həcmində nəzərə çarpan artım, e-ticarətlə məşğul olan və bazarda öz yerini tapmış şirkətlərin olması həmin sahənin maraq kəsb etdiyini göstərir. Amma ölkəmizdə bu sahənin ümumi dövriyyəsi qonşu dövlətlərlə müqayisədə çox aşağıdır. Məsələn, Qazaxıstanda, e-ticarətin illik dövriyyəsi 1 milyard dollara yaxın, Azərbaycanda isə 15 milyon dollar həcmindədir. Bu baxımdan, hesab edirəm ki, e-ticarətin, ümumilikdə, «rəqəmsal iqtisadiyyatın» inkişafı ilə bağlı müəyyən problemlər var.

Bəs hansı tədbirlərin görülməsinə ehtiyac var?

Birincisi, bu sahəyə olan yanaşma tərzi tam dəyişməlidir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, onlarda cəmiyyətin e-ticarətlə aparılan alış-verişlərə münasibətini stimullaşdıran addımlar atılıb. Bu isə e-ticarətin təşviqində mühüm rol oynayır. Azərbaycanda da bu siyasət yürüdülməlidir. «Rəqəmsal iqtisadiyyat» sahibkarlığın digər formaları kimi təşviq olunmalı, onun inkişafını motivasiya edən mexanizmlər tətbiq edilməli, maarifləndirmə işləri aparılmalıdır. Cəmiyyətin bu sahəyə marağını artırmaq üçün mədəniyyət formalaşdırılmalıdır. Ölkədə bu biznes sahəsi geniş bir platformaya çevrilməlidir.

İkincisi, «rəqəmsal iqtisadiyyat»ın əsas mahiyyəti, təşkili ilə bağlı dövlət müəyyən müddət ərzində, məsələn, 3-4 il sahibkarlar üçün xüsusi treninqlər təşkil etməli, onların hüquqi biliklər əldə etməsini təmin etməli, bu sahə üzrə məşğul olan sahibkarlara dəstək verilməlidir.

Vergiqoyma mexanizmlərinin təşkili üçün, ilk növbədə, prosesi tənzimləyən təkmil qanunvericilik formalaşdırılmalıdır. Doğrudur, «Elektron ticarət haqqında» Qanun qəbul olunub, amma bir sıra boşluqların olması, müasir şərait qanunvericiliyə dəyişiklikləri zəruri edir.

### Elektron ticarət yalnız onlayn formada aparılmalıdır

Vergiqoymaya gəlincə, müxtəlif güzəştlər və vergi əmsalları tətbiq oluna bilər. E-ticarətlə məşğul olan biznes nümayəndələri müəyyən müddətə vergilərdən azad oluna bilər. Yaxud həmin sahədə fərqli, aşağı dərəcədə vergi dərəcəsi təyin edilə bilər. Hazırda dünyada rəqəmsal texnoloji şirkətlər ən iri vergi ödəyicilərindən hesab olunur. Onlar buna müxtəlif güzəştlərin və stimullaşdırıcı addımların tətbiqi sayəsində nail olublar. İndiki mərhələdə Azərbaycanda 5 illik vergi güzəşti yolu ilə bu sahə stimullaşdırılar və sonrakı illərdə əhəmiyyətli vergi bazası yaranar.

Üçüncüsü, digər dövlət qurumlarının koordinasiyası və birgə təşviqetmədir. Məsələn, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, ictimai təşkilatlar, e-ticarət şirkətlərinin bu prosesdə əlaqəli şəkildə iştirak etməsi «rəqəmsal iqtisadiyyat»ın inkişafına səbəb ola bilər.

Təklif edirəm ki, e-ticarət yalnız onlayn formada aparılsın. Əhalinin böyük hissəsi daha çox oflayn ticarətə, əlini kağız pula vurmağa, kartında olan pulu bankdan çıxarıb nağd ödəməyə meyillidir. Bunun aradan qaldırılması üçün sahibkarlar yalnız onlayn rejimdə həyata keçirilən əməliyyatlara üstünlük verməlidirlər. Onlayn rejimində aparılan əməliyyatlar Vergilər Nazirliyi üçün də maraq kəsb edir. Çünki bu rejimdə aparılan nağdsız əməliyyatlar tam şəffaflığa təminat verir, prosesə nəzarət imkanları isə daha asandır.

***Hazırladı:* E. CƏFƏRLİ**

# Estoniya təcrübəsi öyrənilir

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən bildirildiyinə görə, qurumun nümayəndə heyəti Estoniyanın Tallin şəhərində Mərkəzi, Şərqi və Cənub-Şərqi Avropa ölkələri üçün təşkil olunmuş Səhiyyə Sistemlərinin Müştərək Şəbəkəsinin 2-ci görüşündə iştirak ediblər.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, Qlobal Fondun, Ümumdünya Səhiyyə Təşkilatının və Estoniya Sosial İşlər Nazirliyinin birgə dəstəyi ilə təşkil edilən görüşün məqsədi iştirakçı ölkələrin maliyyə, səhiyyə və icbari tibbi sığorta üzrə mütəxəssisləri ilə dövlət büdcəsindən səhiyyəyə maliyyə resursları ayrılarkən meydana çıxan məsələlərin və səhiyyə sisteminin maliyyə dayanıqlılığını təmin etmək üçün hazırlanan effektiv siyasət sənədlərinin müzakirəsi olub.

Görüşdə səhiyyə sistemlərinin fəaliyyətinə əsaslanan maliyyələşməsi, hesabatı və monitorinqi, səhiyyəyə ayrılan maliyyə resurslarının xərclənməsinə nəzarət mexanizmləri müzakirə olunmuş və müxtəlif Avropa ölkələrinin bu sahədə təcrübələri öyrənilib.

Agentliyin nümayəndələri Estoniya Tibbi Sığorta Fondunda görüşlər keçiriblər. İcbari tibbi sığortanın Estoniya modeli ilə tanış olublar. Daha sonra ölkəmizin nümayəndələri Qərbi Tallin Mərkəzi Xəstəxanasında və İlkin Səhiyyə Xidməti göstərən mərkəzdə olub və tibbi xidmətin göstərilmə mexanizmləri ilə tanış olublar.

# Sosial evlərin veriləcəyi vaxt məlum oldu

Mənzil İnşaatı Dövlət Agentliyinin sədri Samir Nuriyev bildirib ki, 2017-ci ildə büdcə xərclərinin azaldılması sosial evlərin inşasına təsir etməyəcək. Onun sözlərinə görə, ilk evlərin tikintisi 2 il sonra başa çatdırılacaq: «Yasamal yaşayış kompleksinin layihə smeta sənədləri tam hazırdır. Sənədlər dövlət ekspertizasının keçirilməsi üçün təqdim olunub. Ekspertiza öz rəyini verdikdən sonra, çox güman ki, 2 ay ərzində layihəyə start veriləcək».

S.Nuriyev yaxın gələcəkdə güzəştli kateqoriyadan olan şəxslərin siyahısına digər vətəndaşların da aid ediləcəyini istisna olunmadığını deyib: «Həm sosial ipoteka, həm də sosial mənzilləri alacaq insanların kateqoriyaları müəyyən edilib. Gələcəkdə təkliflər olarsa, həmin siyahının genişləndirilməsinə də baxıla bilər».

# Strateji yol xəritəsi ciddi təhlillər üzərində qurulub

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının sözlərinə görə, strateji yol xəritəsində Azərbaycanda mövcud iqtisadi vəziyyətlə yanaşı, həmçinin qlobal və regional trendlər nəzərə alınıb. Strateji baxış Azərbaycanın davamlı iqtisadi inkişafı əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması və qlobal regional dəyər zəncirlərində özünəməxsus mövqeyinin gücləndirilməsi üzərindən sosial rifahı yaxşılaşdırmağa istiqamətlənəcək. Bu strateji baxışın altında funksional olaraq 11 sektor müəyyənləşib. Bunlardan 6-sı bilavasitə real sektorla, o cümlədən neft-qaz və kimya məhsullarının, kənd təsərrüfatı məhsullarının istehsalı, turizm sektorunun inkişafı ilə bağlıdır.

İcraçı direktor vurğulayıb ki, iki sahə bilavasitə sosial məsələlərlə əlaqədardır: «Bu, həm də onu göstərir ki, Azərbaycan indiyədək yürütdüyü sosial bazar modeli fəlsəfəsini qoruyur və bundan sonrakı strategiyanın mərkəzində də insan amili dayanır. Üç sektorda isə telekommunikasiya və maliyyə-bank sektorunu infrastruktur çətiri altında birləşdirmişik. 11 sektoral yanaşma ilə bərabər biz 4 əsas prioritet istiqamət müəyyənləşdirmişik. Bu istiqamətlər 11 sektorun hər birinə aiddir. Bunlar, ilk növbədə, fiskal və monetar siyasətin uzlaşdırılması, ikinci istiqamət insan kapitalının inkişafı və əmək bazarının regional, qlobal və milli iqtisadi inkişaf tələbatına uyğunlaşdırılmasıdır. Üçüncü prioritet istiqamət biznes mühitinin yaxşılaşdırılması, dördüncü isə dövlət əmlakının idarəedilməsinin təkmilləşdirilməsidir.

> Azərbaycan indiyədək yürütdüyü sosial bazar modeli fəlsəfəsini qoruyur və bundan sonrakı strategiyanın mərkəzində də insan amili dayanır

# Gənc sahibkarlara maarifləndirici dəstək

**Biznes qurmaq üçün yeni addım atan, düşündüklərini həyata keçirməyə çalışan gənclərə yol göstərmək üçün bacarıqlı kadrların, ixtisaslı marketoloqların rolu böyükdür. Beynəlxalq Təlim və Layihə Mərkəzinin təşkilati dəstəyi ilə keçiriləcək «Biznesini yarat» adlı praktik marketinq seminarı gənc iş adamlarını maarifləndirmək, onların günümüzün reallıqları ilə ayaqlaşmaları üçün ehtiyac duyulan layihələrdəndir.**

Seminarın aparıcısı, təcrübəli mütəxəssis Əli Bədəlov böhranın davam etdiyi postneft dövründə iqtisadi fəallığa stimul yaratmağın vacibliyindən danışaraq mövcud bazar subyektlərini və ya hələ də maliyyəsini idarə edə bilməyən, investisiyadan çəkinən şəxsləri istiqamətləndirməyə və onların suallarına aydınlıq gətirməyə ehtiyac hiss olunduğunu bildirir: «Böhran dövründə müşahidələr onu göstərir ki, insanlar öz qərarlarında daha çox tərəddüd etməyə başlayıblar. Nəticədə isə bu tərəddüdlərə səssizlik və hərəkətsizliklə cavab verməli olurlar və bu da böhranın dərinləşməsini və ajiotajın yaranmasını labüd edir. Yeni biznes haqqında düşünənlər üçün altı saatlıq ödənişsiz praktik marketinq seminarı təşkil etmək ideyası da mövcud bazarda fəaliyyət göstərənlərin ustalıq səviyyəsinin artırılması niyyətindən gəlir. Düşünürük ki, öz təcrübəmizə əsaslanıb, böhranın yaratdığı yeni imkanlardan necə faydalanmağı, baş verən dəyişikliklərdən düzgün istifadə etməyi onlara aşılayaq. Çünki böhrana qədər təsərrüfat subyektləri öz fəaliyyətlərini ənənəvi alətlərdən istifadə etməklə təşkil edirdilər, bir çox hallarda dərin təhlillərə ehtiyac hiss etmirdilər. Bazarın daralması fəaliyyətin aşağı düşməsi, sonda isə gəlirlərin azalması ilə nəticələnib. Müflis olan və uğursuzluqla üzləşən biznesmenlər fəaliyyətsiz qalıb, baş verənlərə seyrçi olanlar adekvat reaksiya verə bilmirlər. Bazarda ilk addımlarını atanlar və ya atmaq istəyənlər onları əhatə edən reallıqların xofuna düşürlər».

Seminarda biznesə yeni başlayan və ya başlamaq üçün suallarına cavab axtaran sahibkarlar marketinq alətlərindən düzgün istifadə etməyin yollarını öyrənəcək, yerli və beynəlxalq təcrübədən nümunələrlə tanış olacaqlar. Müdavimlər altı saat ərzində nəzəriyyə və təcrübənin vəhdətinin şahidi olacaqlar. Seminarın əsas məqamlarından biri iştirakçıların pilot layihə üzərində paralel işləmələri olacaq, onlar məlumatlandıqca biliklərini komanda şəklində təcrübə ilə cilalayacaqlar. «Məqsədimiz məlumat, bilik və təcrübə çatışmazlığını aradan qaldırmaqla gənc sahibkarlara dəstək olmaq və onları böhranın yaratdığı xofdan qorumaqdır. Ümid edirik ki, seminarlarımızda buna nail olacağıq», - Əli Bədəlov demişdir.

**FƏXRİYYƏ**

# Maliyyə lizinq əməliyyatları

Bank krediti, icarə, investisiya elementlərini özündə cəmləşdirən münasibətlər kompleksinə maliyyə lizinqi deyilir. Bu, lizinq verənlə lizinq alan arasında əksər hallarda uzunmüddətli xarakter daşıyan maliyyə sazişidir. Həmin sazişin lizinq verən, lizinq alan və əmlakı satandan ibarət 3 əsas iştirakçısı vardır.

Lizinqin üstünlükləri çoxdur. Bu yolla maliyyələşdirmə bank kreditlərindən daha uzunmüddətlidir. Əldə edilmiş mülkiyyət girov təminatı rolunu oynayır. Maliyyə lizinqi, sürətli amortizasiya hesabına, kredit alana onun öz vergi borcları yükünü yüngülləşdirməyə imkan verir. Vergiyə cəlb edilmə məqsədilə lizinq üzrə ödəmələr lizinq vəsaiti hesabına əldə olunmuş əmlakın dəyərinin ödənişi kimi qəbul edilir və vergiyə cəlb olunan mənfəətin məbləğindən çıxılır. Bu öhdəliklər maliyyə-kredit təşkilatlarından yeni kreditlərin alınmasının qarşısını almır.

Lizinqin ən geniş yayılan forması maliyyə lizinqidir və bəzi sualların aydınlaşdırılmasına ehtiyac var.

Əməliyyatın maliyyə lizinqi sayılması üçün Azərbaycan Respublikası Vergi Məcəlləsinin 140.2-ci maddəsində göstərilən hallardan birinin mövcud olması kifayətdirmi? Məsələn, tərəflər razılaşırlar ki, icarə müddətinin sonunda icarəçi (icarəyə götürdüyü) əmlakı qabaqcadan güman edilən qiymətlə icarəyə verəndən almaq hüququna malikdir. Belə icarə vergiqoyma məqsədləri üçün maliyyə lizinqi hesab edilirmi?

Bu şərtlərin hər hansı birinin mövcudluğu əməliyyatın maliyyə lizinqi hesab olunmasına əsas verir.

Vergi üzrə mütəxəssis Emin Səttarov bildirmişdir ki, Vergi Məcəlləsinin 140.6-cı maddəsinin tələblərinə uyğun olaraq, icarəyə verən hüquqi şəxs maliyyə lizinqi başlananadək aktivin sahibi olduğu hallarda, icarəyə verən üçün aktivin satış qiyməti ilə dəyəri aktivlərin təqdim edilməsindən gəlirləri, maliyyə lizinqi müqaviləsində göstərilmiş ssuda ödəmələri üzrə faizlərin hesabat dövrünə aid məbləği isə onun faiz gəlirlərini təşkil edir və əldə edilən gəlirlər 20 faiz dərəcə ilə vergiyə cəlb edilir: «Aparılan əməliyyatın maliyyə lizinqinə aid edilməsi Vergi Məcəlləsinin 140.2 maddəsinin müddəalarına uyğun olaraq müəyyən edilir. Həmin əməliyyat maliyyə lizinqinə aid olduğu halda əmlak alınarkən ödəniş ƏDV məbləğləri əvəzləşdirilmədən bu əmlakın dəyərinə aid edilir və əmlakın maliyyə lizinqi əməliyyatı çərçivəsində təqdim edilməsi ƏDV-nin vergitutma obyektini yaratmır».

> “ Vergi Məcəlləsinin 140.6-cı maddəsinin tələblərinə uyğun olaraq, maliyyə lizinqi müqaviləsində göstərilmiş ssuda ödəmələri üzrə faizlərin hesabat dövrünə aid məbləği onun faiz gəlirlərini təşkil edir və əldə olunan gəlirlər 20 faiz dərəcə ilə vergiyə cəlb edilir

Vergi Məcəlləsinin 140.1-ci maddəsində qeyd olunub ki, maliyyə lizinqi zamanı vergitutma məqsədləri üçün icarəçi əmlak sahibi sayılır. Bu şərtdən irəli gələrək lizinq obyekti olan əmlakın amortizasiya xərcləri icarəçinin mənfəət vergisi məqsədləri üçün gəlirdən çıxılan xərcləri aid edilməlidir. Bundan əlavə, icarəçi həm də lizinq obyekti olan əmlaka görə əmlak vergisinin ödənilməsinə məsuliyyət daşıyır. İcarəyə verən tərəfindən isə mənfəət vergisi hesablanarkən bu cür amortizasiya xərcləri gəlirdən çıxılan xərclərə aid edilməməli, icarəyə verən həmin əmlaka görə əmlak vergisinin ödənişi üzrə öhdəlik daşımamalıdır».

E.Səttarov qeyd etmişdir ki, əsas vəsaitlərə amortizasiya ayırmalarının hesablanması və hesablanmış məbləğin gəlirdən çıxılması, habelə əmlak vergisinin hesablanması üçün həmin vəsaitlər vergi ödəyicisinin balansında olmalıdır.

**F. İKRAMQIZI**

# Torpaqdan düzgün istifadə büdcəyə daxilolmaların artmasına gətirib çıxarır

Əmlak Məsələləri Dövlət Komitəsi torpaqlardan səmərəli istifadə ilə bağlı Bakı və regionlarda aktiv monitorinqlər keçirilməsini davam etdirir. Bu monitorinqlər əsasən torpaqların təyinatına zidd istifadəsi, zəbt olunması, kateqoriyasının dəyişdirilməsi, boş və istifadəsiz saxlanması, münbit qatının korlanması, mühafizə zolaqlarında qanunsuz tikintilərlə bağlı olur. Komitədən verilən məlumata görə, monitorinqlərin keçirilməsində başlıca məqsəd nəzarət tədbirləri vasitəsilə torpaq ehtiyatlarından səmərəli, qənaətli və təyinatına uyğun istifadəni, dövlətin və vətəndaşın torpaq mənafelərini təmin etməkdir.

Bu günlərdə Bakı-Şamaxı avtomobil yolunun Hökməli-Müşfiqabad hissəsində keçirilən monitorinqlər zamanı bir sıra hallarda hüquqi və fiziki şəxslər tərəfindən kənd təsərrüfatı təyinatlı torpaqların məqsədli təyinatının və kateqoriyasının özbaşına dəyişdirilməsi faktı aşkarlanıb. Belə torpaqlarda qanunsuz tikinti işlərinin aparılması və əlavə torpaq sahələrinin zəbt olunması halları müəyyən edilib. Monitorinq zamanı aşkar olunmuş pozuntu halları ilə bağlı İnzibati Xətalar və Cinayət Məcəlləsinin müvafiq maddələri ilə akt və protokollar tərtib olunub pozuntuya yol vermiş fiziki və vəzifəli şəxslərə təqdim edilib. Vətəndaşlara hüquq və vəzifələri, eləcə də torpaq qanunvericiliyi və mühafizə zolaqları ilə bağlı tələblər izah olunub. Tətbiq olunmuş cərimələrin 30 gün müddətində büdcəyə ödənişinin məcburiliyi, əks halda qanuna uyğun tədbirlərin görüləcəyi, habelə qərardan 10 gün ərzində şikayət vermək hüququnun olduğu bildirilib.



Komitənin indiyədək keçirdiyi monitorinqlər sayəsində istifadədən kənarda qalmış, eləcə də səmərəsiz istismar olunan 200 min hektara yaxın torpaq sahəsinin geri qaytarılması istiqamətində işlər aparılır: «Komitə tərəfindən keçirilən monitorinqlər nəticəsində, İnzibati Xətalar Məcəlləsinin tələblərinə əsasən, 1000-dən çox hal üzrə inzibati xətaya yol verimiş fiziki, hüquqi və vəzifəli şəxs barədə inzibati protokollar tərtib edilib. Bunlardan 900 hal üzrə inzibati tənbeh haqqında qərarlar qəbul edilərək müvafiq cərimələr tətbiq olunub. Aşkar edilmiş pozuntular əsasən kənd təsərrüfatı torpaqlarının təyinatının məqsədli şəkildə dəyişdirilməsi, dövlət və bələdiyyə torpaqlarının qeyri-qanuni zəbt olunması, süni balıq göllərinin salınması, daş karxanalarının fəaliyyəti, mühafizə zolaqları ilə bağlı qanunvericiliyin tələblərinin pozulması, torpaqların üst münbit qatının korlanması ilə bağlı olub. Bu tədbirlər nəticəsində respublikada torpaq sahələrinin istifadəsiz saxlanması, müxtəlif ərazilərdə, xüsusilə paytaxt rayonlarında özbaşına zəbtetmə, eləcə də mühafizə zolaqlarında tikintilərin aparılması halları aradan qaldırılır. Belə torpaqlarda təyinatına zidd olaraq və bəzən heç bir sənəd olmadan müxtəlif məqsədli tikintilərin aparılmasının və torpaqların üst münbit qatının korlanmasının qarşısı alınır. İstifadəsiz torpaqların dövlət mülkiyyətinə geri qaytarılması və dövriyyəyə buraxılması istiqamətində də proses davam etdirilir. İndiyə kimi komitənin səyləri nəticəsində kənd təsərrüfatına yararlı torpaq sahələri dövlət mülkiyyətinə qaytarılıb yenidən təyinatına uyğun istifadəyə verilməsi ilə belə torpaqların ümumi həcmi artıb».

Komitədən bildirilib ki, görülən tədbirlər nəticəsində torpaqdan düzgün istifadə büdcəyə daxilolmaların artmasına gətirib çıxarır. Torpaqdan qanunauyğun şəkildə gəlir məqsədilə istifadə respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində fermerlərin, torpaq sahiblərinin və istifadəçilərinin sosial rifahına da müsbət təsir göstərir və məşğulluq səviyyəsini artırır.

Komitə tərəfindən gələcəkdə də torpaqların qeyri-qanuni və səmərəsiz istifadəsi ilə bağlı monitorinqlər davam etdiriləcək, bu sahədə baş vermiş qanun pozuntularına qarşı hüquqi müstəvidə sərt tədbirlər görüləcəkdir.

**AYTƏN**

## vergi təqvimi

| DEKABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | **4** |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | **11** |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | **18** |
| 19 | **20** | 21 | 22 | 23 | 24 | **25** |
| 26 | 27 | 28 | 29 | 30 | **31** | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

20 dekabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyanname verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqlarını ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

beynəlxalq panoram

# Dəbdəbəli avtomobillərə görə vergi tutulur

Dekabrın 1-dən Çin hökuməti öz vətəndaşlarının izafi xərclərini cilovlamaq və atmosferə zərərli qaz tullantılarını məhdudlaşdırmaq məqsədilə qiyməti 1,3 milyon yuandan (188.852 ABŞ dollarından) artıq olan dəbdəbəli avtomobillər üçün 10%-lik dərəcə ilə vergi tutur. Mütəxəssislərin rəyinə görə, yeni vergi dərəcəsi «BMW», «Mercedes-Benz» və «Audi» kimi markaların, eləcə də «Ferrari», «Aston Martin» və «Rolls-Royce» kimi superbrendlərin qiymətinə öz təsirini göstərəcək.

Avtomobil istehsalçıları bəyan etmişlər ki, dəbdəbəli avtomobillərə tətbiq edilən vergi az sayda modelləri əhatə edəcək və bu verginin varlı çinlilərin bahalı maşın almaqdan imtina etmələrinə səbəb olacağı ehtimalı azdır. «Audi» firmasının nümayəndəsi qeyd etmişdir ki, dəbdəbəli maşınlar üçün qoyulmuş vergi «Çində təqdim olunan modellərin 1%-indən azını əhatə edəcək».

Qeyd edək ki, Çin hökuməti son illərdə görkçülük səciyyəsi daşıyan zənginliklə mübarizə aparmağa çalışır, yüksək vəzifəli məmurlara bahalı səyahətlərdən və alış-verişlərdən çəkinmək tövsiyə edilir.

# Maliyyə xidməti rekord məbləğdə vergi ödəyib

«City of London» korporasiyasının sifarişi ilə PWC konsaltinq şirkətinin hazırladığı hesabata əsasən, keçən il Böyük Britaniyada maliyyə xidməti sektoru 71,4 milyard funt sterlinq məbləğində vergi ödəyib. Rekord sayılan bu rəqəmlər «Breksit» barədə aparılan danışıqlar işığında hökumət üçün maliyyə xidməti sektorunun nə qədər mühüm olduğundan xəbər verir.

Ölkədə maliyyə xidmətləri göstərən şirkətlərdən vergi daxilolmaları əvvəlki illə müqayisədə keçən il (2015-ci il martın 31-dən 2016-cı il martın 31-dək) 7,4 faiz artıq olmuşdur. Bu rəqəm son doqquz ilin ən yüksək göstəricisidir. Maliyyə firmalarının payı ölkə büdcəsinə vergi daxilolmalarının ümumi məbləğində 11,5% təşkil edir. Keçən il bu şirkətlərin ödədikləri təkcə korporativ verginin məbləği 8,4 milyart funt sterlinq olub (2015-ci ildə 7,6 milyard olmuşdu).

«Avropa İttifaqından çıxmaq barədə qərarın işığında bu rəqəmlər Britaniyada dövlət xəzinəsi üçün maliyyə sektorunun necə mühüm əhəmiyyət daşıdığını əks etdirir və «Breksit»in maliyyə sənayesinin müxtəlif alt sektorlarına potensial təsirini əvvəlcədən müəyyənləşdirməkdə bizə kömək edəcək», - «City of London» korporasiyasının rəhbəri Mart Boulit demişdir.

# İctimai asayiş xərclərinin ödənilməsi üçün... «rəqs vergisi»

Yəqin ki, Belçika qanunçuluğuna əsasən Brüsselin kafe və klublarında rəqs vergisi ödənildiyindən az adamın xəbəri var. Qanuna görə, şəhərdəki kafe və klublarda hər rəqqasdan bir gecəlik rəqs müqabilində 40 avro senti vergi tutulur. Qanun iki il bundan əvvəl qəbul edilsə də, müəssisələrin çoxu bu qanundan indi - yoxlamalar aparılanda xəbər tutmuşdur. «Vergi müfəttişi izah etdi ki, vergini rəqs edən şəxslərin sayına əsasən ödəmək lazımdır, - Brüssel klublarından birinin artdirektoru Nikolya Buşi demişdir. - Əvvəl elə bildim mənimlə zarafat eləyirlər. Bir sutka üçün hər rəqqas başına 40 sent il ərzində rəqqasların sayına vurulanda təxminən 2000 avro edir... Bu, dövriyyəsi az olan bir biznes müəssisəsi üçün böyük məbləğdir. Bu pula daha çox ifaçı cəlb etmək mümkün ola bilər».

Meriyadan bildirmişlər ki, təhlükəsizlik və ictimai asayişin qorunması üçün şəhər büdcəsindən Brüsselin kafe və klublarına vəsait ayırmaq məcburi idi, buna görə də bələdiyyə xərclərinin heç olmasa bir hissəsini qarşılamaq üçün rəqs vergisinin qoyulması zəruri olmuşdur.

## Xəbər lenti

**İsveç** hökuməti günəş enerjisinə bbu ildən tətbiq olunan verginin dərəcəsini aşağı salmağı planlaşdırır. Bu təşəbbüs hökumətin bərpa olunan enerji mənbələrinə keçid planına daxildir.

**Cənubi Koreya**nın Strategiya və Maliyyə Nazirliyinin açıqladığı vergi güzəştləri siyahısına dizel yanacağı ilə işləyən köhnə avtomobillərini benzinlə işləyən yeni avtomobillər dəyişən şəxslər də var. Hökumətin bu təşəbbüsü gələn il iyunun 3-dək qüvvəyə minəcək.

**«MakDonalds»** şirkəti öz vergi bazasını Lüksemburqdan Böyük Britaniyaya köçürməyi planlaşdırır. Şirkət bununla Avropa İttifaqının tənzimləyici orqanlarının vergi qaçaqçılığı ilə bağlı ittihamlarından müdafiə olunmaq niyyətindədir.

**Kanada və Madaqaskar** ikiqat vergitutmanın aradan qaldırılması barədə saziş imzalamışdır. Bu saziş dividendlərə, faiz ödənişlərinə və royaltiyə qoyulan vergi dərəcələrini məhdudlaşdıracaq. Noyabrın sonunda imzalanmış saziş maksimum vergi dərəcəsini 15% səviyyəsində müəyyənləşdirir.

**Tunis**də minlərlə vəkil peşə vergisinin aradan qaldırılması tələbi ilə etiraz aksiyası keçirmişdir. Etiraza səbəb bu olmuşdur ki, parlamentin komissiyasında qəbul edilmiş büdcə layihəsinə əsasən, vəkillər məhkəmədə apardıqları hər işə görə 8-20 dollar məbləğində peşə vergisi ödəməlidirlər.

# Əcnəbilərdən tutulan vergilərlə bağlı dəqiqləşdirmə aparılıb



Rusiyanın Federal Vergi Xidməti bu ölkədə işləyən Avrasiya İqtisadi Birliyi vətəndaşlarından tutulan fiziki şəxslərin gəlir vergisinin ödənilmə qaydası ilə bağlı açıqlama vermişdir. Rusiyada qalmaqlarının müddətindən asılı olmayaraq ölkə ərazisində işə başladıqları gündən həmin şəxslərin gəlirlərindən 13%-lik dərəcə ilə vergi tutulmalıdır.

Bu qayda Belarus, Qazaxıstan və Ermənistan vətəndaşlarına 2015-ci il yanvarın 1-dən, Qırğızıstan vətəndaşlarına isə avqustun 12-dən tətbiq olunur.

2015-ci il yanvarın 1-dən qüvvəyə minmiş Avrasiya İqtisadi Birliyi barədə Sazişin müddəalarına əsasən, əgər birliyə üzv dövlətlərdən hər hansı birinin yerli və beynəlxalq qanunvericilik əsasında öz ərazisində muzdla işləyən digər üzv dövlətin vətəndaşından vergi tutmaq hüququ varsa, bu vergi həmin ölkənin öz rezidentləri üçün tətbiq edilən dərəcə ilə tutulmalıdır.

Rusiyada o fiziki şəxslər vergi rezidentləri hesab edilirlər ki, onlar ölkə ərazisində 12 ay ərzində faktiki olaraq minimum 183 təqvim günü yaşamış olsunlar. Vergi rezidenti statusu alınarkən fiziki şəxsin nə vətəndaşlığı, nə də anadan olduğu yer nəzərə alınır.

Onu da qeyd edək ki, Rusiyada qeyri-rezident fiziki şəxslərin gəlir vergisinin dərəcəsi 30% təşkil edir.

# Avstraliyada kənar dövlətlərə köçürülmüş gəlirlərə vergi qoyula bilər

Hökumət köçürülmüş gəlirlərdən vergi tutulması haqqında qanun layihəsini nəşr etmişdir. Qəbul ediləcəyi təqdirdə bu qanun şirkətlərin Avstraliyadan transmilli korporasiyalara «süni şəkildə köçürülmüş» gəlirlərə 40% həcmində cərimə qoyulmasını rəsmiləşdirəcək.

Bu qanun illik gəliri 1 milyard Avstraliya dollarından (1,3 milyard manatdan) artıq olan və öz gəlirlərini offşorlara göndərən şirkətləri əhatə edəcək. Qanunda həmin şirkətləri cavabdehliyə çağıran əlavə tələblərin də siyahısının verilməsi nəzərdə tutulur.

Şirkət siyahıda göstərilən xarakteristikaya uyğun gəldikdə vergi xidməti ona ödənilməmiş verginin təxmin edilən məbləği ilə bağlı sənəd göndərəcək. Ödəniş üçün 21 gün vaxt veriləcək. Şirkətlər isə öz gəlirləri barədə izahat vermək üçün vergi xidmətinə əlavə məlumat təqdim edə biləcəklər.

Xatırladaq ki, kənar ölkələrə köçürülən gəlirlərə vergi ilk dəfə Böyük Britaniyada tətbiq olunmağa başlanmışdır. Bu qanunun tətbiqi vergidən yayınmanın çoxlu sayda yarımhüquqi sxemlərinin aradan qaldırılmasına kömək etmişdi.

# İsveçrə bank sirrini açır

Hökumət vergi şəffaflığı sahəsində əməkdaşlığın səviyyəsini əhəmiyyətli şəkildə artırmağı planlaşdırır. Yaxın vaxtlarda bank əmanətçiləri ilə bağlı vergi informasiyalarının açıqlanmasının genişləndirilməsi gözlənilir.

Maliyyə nazirliyinin məlumatına əsasən, bank hesabları haqqında informasiyaların avtomatik şəkildə mübadilə edilməsi coğrafiyasına daha 22 dövlət daxil ediləcək. Buraya Argentina, Meksika, Braziliya, Uruqvay, Hindistan və Cənubi Afrika Respublikası da daxildir.

Görülən tədbirlər varlı əcnəbilərə gəlirlərini öz ölkələrinin vergi orqanlarından gizlətməyə imkan verən İsveçrə banklarının sirrinin tədricən aradan qaldırılmasına yönəldilmişdir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən işlənilib hazırlanmış bu sistemə əsasən, bütün banklar müştərilər barədə məlumatları müştərilərin mənsub olduqları ölkənin vergi orqanına çatdırmalıdırlar. Bundan əlavə, hökumət dairələri xarici əmanətçilər barədə məlumatı da müvafiq dövlətlərin vergi orqanlarına ötürəcək.

Bu sistemin tətbiqi ilə bağlı məsləhətləşmə tədbirləri martda təşkil olunacaq. Planlaşdırıldığına görə, lazım olan normativ aktlar 2018-ci ildə qəbul ediləcək, vergi informasiyasının mübadiləsi prosesinə isə bundan bir il sonra başlanacaq.



## krossvord

**Yuxarıdan aşağı:** 1.Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda kənd; 2.«Haziran gecəsi» filmində Kumru, «Möhtəşəm əsr» filmində Validə Sultan obrazlarını canlandıran məşhur Türkiyə aktrisasının adı; 3.Turin vilayətində şəhər; 4.Quba rayonunun inzibati ərazi vahidində kənd; 5.Qaçış, velosiped yürüşü və qaçış mərhələlərindən ibarət idman növü; 6.Mizrabla çalınan simli musiqi aləti; 7.İri dəniz məməlisi; 13.Hind okeanının şərq hissəsində yerləşən İndoneziya adası; 15.Polşanın paytaxtı; 16.Hərbi yük qatarı; 17.Qarabağ tipinə aid olan xovlu xalça növü; 18.Rusiyanın Saxa və Maqadan vilayəti ərazisindən axan çay; 20.Mərasim və mövsümi səciyyəli, dənli bitkilərdən hazırlanan Azərbaycan milli yemək növü; 21. Əl və ayaqlarda iradədən asılı olmadan qəflətən yaranan əzələ spazmı. **Soldan sağa:** 1.XV və XIX əsrlərdə Şimali və Cənubi Amerikaya hərbi və kəşfiyyat məqsədli səfər edən şəxslərə verilən ad; 8.Fərdi azadlıqları və haqları müdafiə edən siyasi ideologiyanın təmsilçisi; 9.Qazaxıstanda yaşayış məntəqəsi; 10. Landşaft növü; 11.Qamışdan, ağacdan hazırlanan sadə nəfəs çalğı aləti; 12.Nümayiş etdirmək üçün üzərinə eksponatlar qoyulan lövhə, dəzgah, piştaxta; 14.Rusiya Federasiyasının Saxalin vilayətində şəhər; 19.Şah oğlu və ya padşah ailəsindən olan şəxslərin övladlarından biri; 21.Yük; 22.«AvtoVAZ» ASC tərəfindən istehsal edilən avtomobil markaları; 23.İpək sapdan toxunmuş dördkünc formalı ənənəvi Azərbaycan qadın baş örtüyü; 24.İnternetdə istifadəçilərin bloq, veb-forumlarda, sosial şəbəkələrdə istifadə etdikləri şərti ad; 25.Dörd ildən bir keçirilən idman yarışları.



*«Möhtəşəm əsr» filmində Validə Sultan obrazını canlandıran məşhur türk aktrisası*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Edison (Tomas Alva); 2.Latviya; 3.Kaqul; 4.İmamlı; 5.Dinqo; 6.Biruni; 9.Uqah; 13.Aval; 15.Aneroid; 16.Çingiz (Aytmatov); 17.Maseyo; 18.Bofort (şkalası); 20.Donor; 21.Myera.**Soldan sağa:**1.Eklektizm; 5.Dib; 7.İstiqraz; 8. Enqr (Jan Oqüst Dominik); 10.Odiel; 11.Liqroin; 12.Qaval; 14.Ehram; 19.İndiana; 21.Maevo; 22.Gent; 23.Kemerovo; 24.Zar; 25.Miokardit.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Üç cüdoçumuz beynəlxalq reytinq cədvəlində birincidir



Beynəlxalq Cüdo Federasiyası yeni reytinq cədvəlini açıqlayıb. Azərbaycan Cüdo Federasiyasından bildiriblər ki, 2016-cı ilin yekun reytinq cədvəlində Avropa çempionu, Rio Olimpiya Oyunlarında Azərbaycana gümüş medal qazandıran Rüstəm Orucov (73 kq) yeni nailiyyətə imza atıb. Belə ki, cüdoçumuz 3010 reytinq balı yığaraq həm öz çəkisində 1-ci yeri qoruyub, həm də bütün çəki dərəcələri üzrə ən çox xal toplayıb. Cüdoçumuz neçə ildir bu göstəriciyə görə lider olan, ikiqat Olimpiya çempionu və dəfələrlə dünya çempionu fransalı Teddi Rineri (100 kq-dan yuxarı, 2800 xal) geridə qoyub.

Rio Olimpiadasında Azərbaycana daha bir gümüş medalı qazandıran Elmar Qasımov (100 kq) 2524 xal toplayaraq öz çəki dərəcəsində liderliyini davam etdirir. Altmış kiloqram çəki dərəcəsində ölkəmizi beynəlxalq turnirlərdə layiqincə təmsil edən Orxan Səfərov bütün rəqiblərini qabaqlayaraq liderliyi ələ keçirib (1854 xal). Bu çəkidə mübarizə aparan daha bir cüdoçumuz İlqar Müşkiyev də 2 pillə irəliləyərək 1073 xalla 12-ci yerdə qərarlaşıb.

Nicat Şıxəlizadə (66 kq) ötən ayla müqayisədə 1002 xal qazanaraq 9-cu pilləyə yüksəlib. Digər iki cüdoçumuz - Məmmədəli Mehdiyev (90 kq) və Uşanqi Kokauri (100 kq-dan yuxarı) reytinq cədvəlində öz yerlərini qorumağa müvəffəq olublar. M.Mehdiyev 806 xal ilə 20-ci, U.Kokauri isə 866 xalla 18-ci yerdə qərarlaşıblar.

# Ronaldo 4-cü dəfə "Qızıl top"a sahib oldu

«France Football» dərgisinin dünyanın ən yaxşı oyunçusuna verdiyi «Qızıl top» mükafatının sahibi müəyyənləşib. Dünyanın müxtəlif ölkələrindən 173 jurnalist arasında aparılan səsverməyə əsasən, Portuqaliya millisinin və «Real»ın hücumçusu Kriştiano Ronaldo bu ilin ən yaxşı oyunçusu seçilib. Bununla da o, 4-cü dəfə (2008, 2013, 2014, 2016) bu mükafatı qazanıb. Qeyd edək ki, K.Ronaldo bu il Portuqaliya millisinin tərkibində Avropa çempionu və «Real»al Çempionlar Liqasının qalibi olub.

Xatırladaq ki, bu ildən etibarən «France football» nəşri «Qızıl top» mükafatının qalibini yenidən jurnalistlər arasında müəyyənləşdirməyə başlayıb. Bundan əvvəlki illərdə bu prosesdə FİFA da iştirak edirdi. Qalibi təkcə jurnalistlər deyil, FİFA üzvü olan milli komandaların baş məşqçiləri və kapitanları da seçirdi.

# Taekvondo üzrə Bakı Qran-prisi başa çatdı



Paytaxtımızda keçirilən taekvondo üzrə Qran-pri yarışının final mərhələsinə dekabrın 10-da yekun vurulub. Yarışın sonuncu günündə daha dörd çəki dərəcəsində qaliblər müəyyənləşib. Azərbaycan yığma komandası iki gün davam edən Bakı Qran-prisində üç çəki dərəcəsində 5 taekvondoçu ilə təmsil olunub. Aktivinə bir qızıl medal yazdıran millimiz üçün turnirin birinci günü uğurlu olub. Taekvandoçumuz Milad Beigi Harçeqani (80 kq) fəxri kürsünün ən yüksək pilləsinə yüksələrək beynəlxalq yarışın qalibi olub. Sonuncu gündə isə dayanq üzərinə çıxan taekvondoçularımız ilk döyüşlərini məğlubiyyətlə başa vurublar. Əvvəlcə Olimpiya çempionumuz Radik İsayevin (+80 kq) yarışda debütü uğurlu alınmayıb. Öz çəki dərəcəsində lider olan R.İsayev gözlənilmədən Roman Kuznetsova 0:3 hesabı ilə uduzub.

Turnirdə ölkəmizi təmsil edən yeganə xanım taekvondoçumuz Yaprak Eriş (57 kq) səkkizdəbir finalda Hedaya Malakla (Misir) qarşılaşıb. Döyüş rəqibin üstünlüyü ilə keçib və idmançımız yarışdakı çıxışını erkən başa vurub. Dünya reytinqində 12-ci yerdə qərarlaşan Ayxan Tağızadə (68 kq) isə Koreya Respublikasından olan idmançı Seok-Bae Kimlə görüşdə uduzaraq mübarizəni dayandırıb. Beləliklə, Azərbaycan yığması 47 ölkədən 128 taekvondoçunun mübarizə apardığı Qran-pri turnirini bir qızıl medalla başa vurub.

*Yeri gəlmişkən:* Dünya Taekvondo Federasiyası (DTF) 2016-cı ilə yekun vurub. Bununla bağlı Bakıda keçirilən tədbirdə DTF-nin prezidenti Çunqvon Çu, müxtəlif ölkələrin taekvondo federasiyalarının prezidentləri, Azərbaycan Taekvondo Federasiyasının prezidenti Kamaləddin Heydərov, gənclər və idman naziri Azad Rəhimov və digər qonaqlar iştirak ediblər.

Çunqvon Çu Azərbaycan Taekvondo Federasiyasının prezidenti, DTF-nin vitse-prezidenti Kamaləddin Heydərova xüsusi mükafat təqdim edib. Sonra DTF bu idman növü üzrə ilin «ən yaxşıları»nın adlarını elan edib. Siyahıda həm Azərbaycan Taekvondo Federasiyası, həm də kişilərdən ibarət yığmamızın baş məşqçisi Reza Mehmandostun da adı var.

# Milli futbol umuz Trabzonspor dan ayrılır



Türkiyənin «Trabzonspor» futbol klubu Azərbaycan yığmasının hücumçusu Ramil Şeydayevi qış transfer dövründə icarəyə verməyi düşünür. Baş məşqçi Ərsun Yanalın tələbi ilə yeni hücumçu axtarışına çıxan klub «Aston Villa»nın futbolçusu Libor Kozakla danışıqlara başlayıb. Klub çexiyalı forvardı azad agent statusunda heyətinə qatmağa çalışır. «Trabzonspor» mövsümlərarası fasilədə «Porto»dan icarəyə götürdüyü koreyalı hücumçu Hyun-Yun Suku da geri göndərmək fikrindədir.

Qeyd edək ki, yay fasiləsində «Zenit»dən «Trabzonspor»a transfer olunan Ramil Şeydayev Türkiyə Superliqasında klubunun heyətində nadir hallarda meydana çıxır.

## mozaika

texnologiya



# Kontakt linzaları qanda şəkərin səviyyəsini izləyə bilər

ABŞ-ın Oreqon Universitetinin bir qrup tədqiqatçısı diabetdən əziyyət çəkən xəstələr üçün kontakt linzaları hazırlamağa başlayıb. Linzalar görməyə mane olmayan şəffaf sensorla təchiz ediləcək. Linza istifadəçiləri qanda şəkərin ənənəvi üsullarla müntəzəm ölçülməsindən imtina edə biləcəklər: sensor gözyaşı mayesində qlükozanın səviyyəsini müəyyən edə bilər.

Linzanın əsas komponenti amorf hallium oksidindən, indium və sinkdən (IGZO FET) olan nanostrukturlu tranzistordur. Nanostrukturlu tranzistorun qiyməti baha deyil, istehsalı da asandır. Belə ki, tədqiqatçılar linzalar üçün sensorları kolloid litoqrafiyanın və elektrohidrodinamik çapın köməyi ilə düzəldiblər. Bu qurğu alınan məlumatları insulinin qana daxil olmasını tənzimləyən insulin nasosuna real vaxtda ötürə bilər. Beləliklə, sensor və nasos süni mədəaltı vəzi kimi birlikdə işləyəcək. Bundan əlavə, sensor məlumatı smartfondakı əlavəyə sərbəst ötürə biləcək. Bu yolla pasiyent gün ərzində şəkərin səviyyəsi barədə bütün lazımi məlumatları alacaq.

Müəlliflər vericinin yalnız qlükozanın konsentrasiyasının dəyişməsinə reaksiya verdiyini nümayiş etdiriblər. Məhlula digər komponentlərin əlavə edilməsi isə onun işinə təsir etməyib. Qreq Herman izah edib ki, gözyaşı mayesində digər maddələrin, məsələn, stress hormonlarının konsentrasiyasının izlənilməsi üçün də bu sensorlardan istifadə edilə bilər. Sensorların köməyi ilə şiş biomarkerlərinin konsentrasiyasını ölçmək, yəni onları xərçəngin diaqnostikasına tətbiq etmək olar.

ekologiya

# Şimal qütbü və Antarktida əriyir

Elm adamları Şimal qütbü və Antarktidadakı buzlaqların miqdarının daha əvvəl rast gəlinməmiş bir vəziyyətdə azalmasının rekord səviyyədə olmasını açıqlayıblar.

ABŞ-ın Milli Qar və Buz Məlumat Mərkəzinin rəsmi internet saytında yayımlanan hesabatının da son 30 ilin göstəricilərinə əsasən, Şimal qütbü və Antarktidadakı buzlaqların əriməsinin noyabr ayında rekord səviyyəyə çatdığı qeyd olunur.

Hesabatda bildirilir ki, Şimal qütbündəki buz kütlələri 1981-2010-cu illərdə orta hesabla 9,08 milyon kvadratkilometr ərazini əhatə edib. Noyabr ayında isə buzlaqların ölçüsünün 1,95 milyon kvadratkilometr olduğu müəyyən edilib. Antarktidada isə noyabr ayında buz kütlələrinin ölçüsü 14,54 milyon kvadratkilometr təşkil edib ki, bu da hesabatda göstərilən dövrlə müqayisədə 1,81 milyon kvadratkilometr daha aşağıdır.

Hesabatda, həmçinin Barents dənizi də daxil olmaqla həmin dövrdə buzlaqların 50 min kvadratkilometr azaldığı bildirilir.



araşdırma

# Balinalar ünsiyyət qururlar

Avstraliya alimləri müəyyənləşdiriblər ki, donqar balinalar su səthinə zərbələr vuraraq bir-biriləri ilə ünsiyyət qururlar. Onlar tez-tez suyun səthinə çıxaraq, kürəkləri və ya quyruq üzgəcləri ilə suya güclü zərbələr endirirlər. Müşahidələr əsasında ehtimal olunur ki, kürəklər və quyruq üzgəcləri ilə suyun səthinə zərbə vurmaq digər balinalarla ünsiyyət saxlamaq vasitəsidir. Arada məsafə dörd kilometrdən uzaq olduqda bu hərəkətlərin tezliyi aşağı düşür. Alimlər bu cür ünsiyyətlə uzaqdakı balinalar qrupu ilə də əlaqə yaratmağın mümkünlüyünü istisna etmirlər.

cəmiyyət

# «Ağıllı» kuklalar uşaqları izləyir



Norveç İstehlakçıların Hüquqlarının Müdafiəsi Şurası internetə qoşulmuş ABŞ-ın «Genesis Toys» şirkəti tərəfindən hazırlanmış uşaq oyuncaqlarını şəxsi həyatın toxunulmazlığı hüququnu pozmaqda ifşa edib. Məlum olub ki, «ağıllı» «My Friend Cayla» və «i-Que» kuklaları uşaqlar arasındakı dialoqu yazaraq «Nuance» (nitqin tanınması texnologiyaları üzrə ən böyük istehsalçılardan biri) şirkətinə göndərir və sonuncu səs faylları üzərində istədiyi kimi davranmaq hüququna malikdir.

Bu halda «Genesis Toys» şirkətinin hərəkəti qaydalara zidd deyil. İstifadəçi razılaşmasında yazılıb ki, şirkət «hədəflənmiş» reklam üçün səs məlumatlarından istifadə edə və onları üçüncü şəxslərlə paylaşa bilər. Ancaq hüquq müdafiəçiləri məlumat veriblər ki, istehsalçı şirkət valideynlərə uşaqlarının səsinin marketinq üçün istifadə ediləcəyinə dair xəbərdarlıq etmir.

«Casus» oyuncaqların qablaşdırılmasında «Mən sənin haqqında çox şey bilirəm» şüarı yazılıb. Nəticədə İstehlakçıların Hüquqlarının Müdafiəsi Şurası «ağıllı» gəlincikləri satışdan çıxarmaq tələbi ilə ABŞ-ın Federal Ticarət Komissiyası və Avropanın tənzimləyici orqanlarına şikayət edib.




ELAN

**«Vergilər» qəzetinə 2017-ci il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


**Müdriklər deyib ki...**



***«Görmək istəyən üçün kifayət qədər işıq, istəməyən üçünsə kifayət qədər qaranlıq var».***

*Blez Paskal (1623-1662)*